

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 sentyabr 2026-cı il №64 (3066) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

## Məhz hərbi güc və övladlarımızın qəhrəmanlığı nəticəsində biz Ermənistanın işğalçı ordusunu öz torpaqlarımızdan qovmuşuq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.*



Nümayəndə heyətinə Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Qazaxıstan Müsəlmanları Ruhani İdarəsinin sədri Naurızbay Taqanulı, Qırğızıstan Müsəlmanları İdarəsinin sədri Əbdüləziz Zakirov, Türkiyə Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Nuriddin Xaliknazarov, Türkmənistan Müsəlmanları Ruhani İdarəsinin sədri Rahman Qurbanmuradov, Şimali Kiprin Dini İşlər sədri Hakan Moral, Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam, IRCICA-nın (İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi) baş direktoru Mahmut Erol Kılıç, Çeçenistan Respublikası Müsəlmanları Ruhani İdarəsinin sədri, Şimali Qafqaz Koordinasiya Mərkəzinin sədri Salah-Hacı Mejiyev, Beynəlxalq İslam Fiqhi Təşkilatının baş katibi Seyid Əbdül-Qasim Əd-Dibaci, Qafqaz Müsəlmanları İdarəsinin Şimali Qafqaz üzrə qazısı, Dərbənd Cümə məscidinin imamı Şaqabitdin Kərimov, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Faiq Nəbiyev, Şərqi Gürcüstan müftisi Etibar Eminov, Qərbi Gürcüstan müftisi Adam Şantadze, Ümumdünya İslam Məzhəblərinin Yaxınlaşdırılması Assambleyasının baş katibi Həmid Şəhriyari və Suriyanın vəqflər naziri Məhəmməd Əbu Əl Xeyr Şükri daxildir.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli şeyx həzrətləri.

Hörmətli qonaqlar.

Sizi səmimiyyətlə salamlayıram. Qonaqlara “Azərbaycana xoş gəlmisiniz!” deyirəm.

Bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısı keçirilir. Bu, özlüyündə böyük bir beynəlxalq tədbirdir. Eyni zamanda, bu günlərdə Bakıda böyük şair, mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfrans keçirilir və çoxlu qonaqlarımız bu konfransda iştirak edirlər.

Bu iki tədbirin eyni vaxtda Bakıda keçirilməsinin böyük mənası var. Çünki biz öz dahi şəxsiyyətlərimizlə, mütəfəkkirlərimizlə, şairlərimizlə həmişə fəxr edirik. Seyid Yəhya Bakuvi onlardan biridir. XV əsrdə yaşayıb-yaratmış Yəhya Bakuvi çox böyük bir iz buraxmışdır.

Azərbaycan xalqı dünya mədəniyyətinə bir çox dahi şəxsiyyətlər, şairlər, mütəfəkkirlər bəxş etmişdir. Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün İslam aləmi üçün çox böyük dəyərdir.

Bilirəm ki, bizim tədbirlərdə bir çox ölkələrdən dini liderlər iştirak edirlər. Onları xüsusilə salamlayıram. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini liderlərindən başqa, bu gün Gürcüstan, Suriya dini liderləri, Şimali Qafqaz respublikalarının nümayəndələri, xüsusilə Dağıstandan, Çeçenistandan olan dini rəhbərlər iştirak edirlər. Yəni bu, birliyin nümunəsidir. Təbii ki, burada Azərbaycanın xüsusi rolu var. Çünki Azərbaycan həm Türk dünyasının bir parçasıdır, həm də Qafqaz ölkəsidir. Bizim ölkəmizin tarixinə baxanda hər şey açıq-aydın görünür. Qədim Qafqaz Albaniyası məhz bizim ərazilərimizdə mövcud idi və qədim dövlətin paytaxtı Qəbələ şəhəri idi, bu gün də ölkəmizin ən gözəl yerlərindən biridir.

Qədim Atabəylər dövlətinin paytaxtı isə digər gözəl şəhərimiz Naxçıvan olmuşdur. Yəni bu bir daha göstərir ki, Türk dünyası və Qafqaz - bu iki məkan, əslində, vahid bir coğrafiyanı əhatə edirdi və Türk Dövlətləri Təşkilatına üzv olan yeganə Qafqaz ölkəsi Azərbaycandır.

Təbii ki, bizim Türk dünyası ilə sıx əlaqələrimiz var, Qafqaz xalqları ilə sıx qohumluq, dostluq əlaqələrimiz var. Təbii ki, burada sizin bir yerdə olmağınız çox böyük rəmzi məna daşıyır. Çünki məhz belə birgə tədbirlər bizi daha da birləşdirir, aramızdakı dostluq, qardaşlıq əlaqələrini gücləndirir və dünyaya çox gözəl mesajlar verir.

Müsəlman dini liderlərin hər bir sözü, təbii ki, müsəlman icmaları üçün çox dəyərlidir, qiymətlidir. Bu sözlər sülhə, əməkdaşlığa, əmin-amanlığa, barışığa istiqamətləndirilirsə, deməli, yaşadığımız bölgələrdə də sülh və əmin-amanlıq üstünlük təşkil edəcək.

Bugünkü dünyada və xüsusilə müsəlman aləmində baş verən bəzi hadisələr, təbii ki, bizim hamımızı narahat edir. Biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək. Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatı, ICESCO təşkilatı xətti ilə bir çox tədbirlər keçirilmişdir. Hələ təxminən 10 il bundan əvvəl - 2017-ci ildə bizim təşəbbüsümüzlə və bütün müsəlman ölkələrinin dəstəyi ilə Bakıda IV İslam Həmrəylik Oyunları keçirilmişdir. Biz də bu Oyunları, sadəcə olaraq, idman yarışı kimi deyil, böyük birlik bayramı kimi qəbul edirdik.

Gələn il Bakıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü keçiriləcək. Dünyada gedən proseslərin fonunda belə bir tədbirin məhz Azərbaycanda keçirilməsi hesab edirəm ki, təsadüfi deyil. Düzdür, bu qərar bir qədər əvvəl qəbul edilmişdir, amma, əslində, çox düzgün bir qərardır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycan təmsil olunduğu bütün təşkilatlarda birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış edir. Əminəm ki, gələn il Azərbaycanda keçiriləcək bu Zirvə Görüşünün çox gözəl nəticələri olacaq. Bizim ümidlərimiz ondan ibarətdir ki, o Zirvə Görüşünə qədər bəzi müsəlman ölkələri arasında gedən proseslər, anlaşılmazlıq, bəzi hallarda toqquşmalar başa çatacaq. Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın. Bizi ayırmaq istəyən, əslində, İslam dininə zərbə vurmaq istəyən ünsürlər də öz yerlərinə otursunlar. Əlbəttə ki, biz ancaq müştərək səylərlə buna nail ola bilərik.

Ona görə hesab edirəm ki, sizin Bakıda olmağınız və bir yerdə tədbirlərdə iştirakınız, yenə də deyirəm, həm bölgəmizə, həm dünyaya çox ciddi və birmənalı mesajlar verəcəkdir.

Bilirəm ki, səfər zamanı siz Qarabağa da gedəcəksiniz. Mənə verilən məlumata görə, Ağdam, Xankəndi, Xocalı, Şuşa şəhərlərində olacaqsınız. Əminəm ki, bu səfər sizin üçün çox maraqlı olacaq. Çünki həm 30 ilin işğalının fəsadlarını, dağıntılarını görəcəksiniz və eyni zamanda, bu gün dirçələn Qarabağın yeni simasını görəcəksiniz. Bu torpaqlar 30 il ərzində Ermənistanın işğalı altında idi. Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. Xocalı şəhərində qanlı soyqırımı törədilmişdir. Artıq Xocalıda Xocalı Memorial Kompleksi də yaradılıb və əgər vaxtınız olarsa, oraya da baş çəkə bilərsiniz.

(Ardı 2-ci səhifədə)

## Ümummilli Liderin başladığı yolun Müzəffər Ali Baş Komandan zirvəsi



Dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin qorunmasında güclü ordunun müstəsna rolu vardır. Tarixin bütün mərhələləri göstərir ki, dövlətin təhlükəsizliyinin etibarlı təminatı, xalqın sabitlik və əmin-amanlıq şəraitində yaşaması, ilk növbədə, onun müdafiə qüdrətindən, ordusunun döyüş imkanlarından asılıdır. Bu baxımdan Azərbaycan dövlətçiliyi tarixində ordu quruculuğu prosesi xüsusi əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Ümummilli Liderin təməlini qoyduğu bu yolun başlanğıc nöqtələrindən biri olmaqla yanaşı, ordu quruculuğu prosesinin ən mühüm səhifələrinin yazıldığı tarixi məkandır. 1992-ci ilin 15 sentyabr tarixi isə bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Həmin gün Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin olunması məqsədilə muxtar respublika ərazisində ilk milli ordu qurumlarından biri - “N” saylı əlahiddə gücləndirilmiş motoatıcı birləşmə yaradıldı.

(Ardı 6-cı səhifədə)

## Ötən həftə zərərsizləşdirilən minaların və digər hərbi sursatların sayı açıqlanıb

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən sentyabrın 7-13-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 113, tank əleyhinə 19 mina və 426 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1348,9 hektar ərazi mina və partlamamış digər hərbi sursatdan təmizlənib.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

# Məhz hərbi güc və övladlarımızın qəhrəmanlığı nəticəsində biz Ermənistanın işğalçı ordusunu öz torpaqlarımızdan qovmuşuq

(Əvvəli 1-ci səhifədə)

Qarabağda və Şərqi Zəngəzurda yerləşən bütün şəhər və kəndlərimiz yerlə-yeksan edilmişdir. Xalqımıza qarşı etnik təmizləmə aparılmışdır. Bir milyona yaxın azərbaycanlı Ermənistan dövlətinin etnik təmizləmə siyasəti nəticəsində öz doğma torpaqlarından didərgin salınmışdır. Bildiyiniz kimi, 30 il davam edən danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistan öz xoşu ilə torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistanı dəstəkləyən böyük sayılan dövlətlər isə məsələni həll etmək yox, uzatmaq və bu işğalı əbədi etmək istəyirdi. Bu dövlətlər Ermənistana hərbi, iqtisadi, siyasi dəstək verərək faktiki olaraq işğalçını mükafatlandırırdı.

Azərbaycan xalqı bu ədalətsizliyə son qoydu və dünyada bir presedent yaratdı. Çünki bu vaxta qədər işğal edilmiş torpaqlar əfsuslar olsun ki, azad edilmirdi. Hər halda XX əsrdə və XXI əsrdə belə hallara rast gəlinmirdi, ya da ki, çox nadir hallarda rast gəlinirdi.

Azərbaycan xalqı qan tökərək, döyüşərək bu torpaqları azad etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların canı-qanı bahasına, qəhrəman övladlarımızın fədakarlığı hesabına biz öz ədalətimizi, hüququmuzu və milli ləyaqətimizi bərpa etdik. İşğalçıları torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində qaldırdıq, separatçılığa son qoyduq. Separatçı liderlər, hərbi cinayətkarlar, uşaq qatilləri bu gün Azərbaycan həbsxanalarında öz cəzalarını çəkirlər. Bu ədalətin təntənəsidir. Yəni ədalət tam zəfər çalmışdır və Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir.

Biz bu torpaqlara 30 ildən sonra qayıdanda nəyi gördük? Bunu indi bütün dünya görür - viran qoyulmuş şəhərlər, kəndlər, sökülmüş evlər, talanmış milli sərvətlərimiz, dağıdılmış məscidlər. 65 məscid Ermənistan dövləti tərəfindən, - mən xüsusilə bunu qeyd etmək istəyirəm, bu, Ermənistanın dövlət siyasəti idi, - Ermənistan dövləti tərəfindən tam dağıdılmışdır. Bəziləri yarıdağılmış vəziyyətdə idi. Yəqin ki, siz də o fotoları görmüsünüz, Ermənistan məscidlərdə bilərəkdən, qəsdən heyvan saxlayırdı, donuz saxlayırdı, inək saxlayırdı. Yəni bizi təhqir etmək, bizi aşağılamaq üçün, bizim həssaslığımızı dərk edərək, yəni, qəsdən xalqımızı daha da incitmək üçün belə vəhşi əməllərdən də çəkinmədi. Əslində bu, təkcə bizə, xalqımıza yox, bütün İslam dünyasına bir təhqir idi. Bax, budur Ermənistan dövlətinin əsl siması. Biz bunu heç vaxt unutmamalıyıq və unutmayacağıq.

Bəli, bu gün sülh var və müharibə dayanıb. Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və əminəm ki, bu, uzunmüddətli olacaq. Hər halda Azərbaycan dövlətinin mövqeyi bundan ibarətdir. Ancaq biz bizə qarşı, xalqımıza qarşı törədilən vəhşilikləri heç vaxt unutmayacağıq. Xocalı qurbanlarını unutmayacağıq, dağıdılmış məscidlərimizi, təhqir edilmiş mədəni ocaqlarımızı heç vaxt unutmayacağıq və bu yaddaş bizi daha da ayıq edəcək. Bu yaddaş imkan verməyəcək ki, biz yenə də şirin sözlərə aldanaq, imkan verməyəcəyik ki, yenə də xalqımıza qarşı hansısa məkrli planlar baş tutsun. Biz ayıq olmalıyıq, ayığıq və eyni zamanda, öz hərbi gücümüzü də artırırıq. Məhz hərbi güc və övladlarımızın qəhrəmanlığı nəticəsində biz Ermənistanın işğalçı ordusunu öz torpaqlarımızdan qovmuşuq. Ona görə hərbi vətənpərvərlik tərbiyəsi bu gün Azərbaycanda çox geniş vüsət alıb. Hər kəs görür ki, bu gün dünya tamamilə dəyişib və güc amili ön plana çıxıb. "Kim güclüdür, o da haqlıdır" prinsipini biz ortaya atmamışıq. Amma biz mövcud olan reallıqlarla gərək hesablaşaq və təbii ki, hesablaşırıq. Bilirik ki, suverenliyimizin, ərazi bütövlüyümüzün, xalqımızın bundan sonra azad, müstəqil xalq kimi yaşamasının bir zəmanəti var, o da bizim iradəmiz, qətiyyətimiz, hərbi gücümüz, xalqımızın bir yumruq kimi birləşməsi, imanımız və milli dəyərlərimizdir.



Əlbəttə ki, Qarabağa səfəriniz, yenə də deyirəm, çox maraqlı olacaq. Çünki siz dirçələn Qarabağı da görəcəksiniz. Bu gün Qarabağda və Şərqi Zəngəzurda artıq 48 şəhər və kənddə insanlar yaşayır. Yəni keçmiş köçkünlər qayıdıb, orada işləyənlər, təhsil alanlar məskunlaşıb. "Böyük Qayıdış" Proqramı uğurla icra edilir. Bax, dediyim bu şəhər və kəndlərdə artıq 90 mindən çox insan yaşayır. Yəni, həyat qayıdıb və bu, bizim böyük nailiyyətimizdir, tarixi nailiyyətimizdir. Xalqımız 30 il ərzində əzab-əziyyət içində yaşayıb. Bu gün isə qalib xalq kimi, müzəffər dövlət kimi yaşayırıq.

Onu da bildirməliyəm ki, bütün bu əzablara, işgəncələrə, soyqırımlara baxmayaraq, biz Ermənistana, Ermənistan xalqına qarşı heç bir adekvat addım atmamışıq. İkinci Qarabağ müharibəsi zamanı biz ancaq hərbi birləşmələri atəşə tutmuşduq. Biz Ermənistandan fərqli olaraq, əliyalın, mülki şəxslərə qarşı heç vaxt müharibə aparmamışıq. Bu, bizim xalqımızın mentalitetinə də, adətlərinə də ziddir. Mən hələ müharibə dövründə demişdim ki, biz intiqamımızı, qisasımızı döyüş meydanında almalıyıq və artıqlaması ilə aldıq da. Şəhidlərimizin qanı yerdə qalmadı. Biz şəhidlərimizin qanını düşməndən aldıq, düşməni məhv etdik, təslim olmağa məcbur etdik. Bir daha deyirəm, bu gün müzəffər xalq kimi qürurla yaşayırıq, qururuq.

Otuz il ərzində işğal dövründə Qarabağda Ermənistan dövləti bir daşı daş üstə qoymamışdır, bir bina tikməmişdi, ancaq öz yırtıcı, rüşvətxor və qaniçən rəhbərləri üçün villalar, imarətlər tikmişdir. İndi gedib görərsiniz, biz 4-5 il ərzində bütün o böyük ərazini, - təqribən 15 min kvadratkilometrə yaxın olan ərazi, - yəni, bir ölkə boyda ərazini hansı hala gətirdik. Onu özünüz görərsiniz.

Mən bir daha sizi salamlayıram. Xüsusilə şeyx həzrətlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, Türk dünyasında, İslam dünyasında və dünyada böyük hörmətə malik olan şəxsiyyətdir. Onun fəaliyyəti həm Azərbaycan xalqı tərəfindən, həm qonşu dövlətlər, xalqlar tərəfindən yüksək qiymətləndirilir. Onun himayəsi, təşəbbüsü ilə keçirilən bu tədbirlərin çox böyük mənası var - həm xalqımız üçün, həm Qafqaz üçün, Türk dünyası üçün, İslam aləmi üçün. Ona görə hörmətli şeyx həzrətləri, sizə öz təşəkkürümü bildirmək istəyirəm. Qonaqlara da təşəkkürümü bildirirəm ki, bu gün bizimlə bir yerdədirlər. Sizə uğurlar, təmsil etdiyiniz xalqlara, ölkələrə xoşbəxtlik, əmin-amanlıq, cansağlığı arzulayıram.

Sağ olun.

* * *

**Şeyxülislam Allahşükür Paşazadə** çıxış edərək deyib:

- Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm Prezident İlham Əliyev cənabları, Zati-aliləri.

Sizin sözünüzün qüvvəti, mən bir şeyxülislam kimi Allah-taalanın nəsib etdiyi, Azərbaycanın müəyyən qədər sonrakı tarixində bu yeniliklərin əvvəlini də görmüşəm. Bu gün də mənə bu ahıl dövrümdə, bu yaşı keçmiş dövrümdə çiçəklənən Azərbaycanı görmək nəsib olub. Mən buna görə Allahıma şükür edirəm. Sizə də minnətdarlığımı bildirirəm ki, biz Sizin himayədarlığınız ilə Türk Dövlətləri Təşkilatının rəhbərləri böyük filosof, mötədil İslamı təbliğ edən Seyid Yəhya Bakuvinin işığında yığışmışıq. Bu himayədarlığı da Siz etmisiniz, hər cəhətdən kömək göstərmisiniz və ona görə də Sizə minnətdarlığımı bildirirəm.

Həqiqətən də, Sizin gördüyünüz işlər, atdığınız addımlar məni dünənə də aparır, bu günə də gətirir. Mənim dünənim, - Allah rəhmət eləsin, - Ulu Öndər Heydər Əliyev cənabları ilədir, onunla bərabər addımlayırdıq, görürdük, o, bizə gələcəyi göstərirdi. Hələ o dövrdə o, Azərbaycana ikinci dəfə rəhbər gələndən sonra bizi, din xadimlərini digər din nümayəndələri ilə birlikdə yığdı, bizə multikulturalizm yolunu öyrətdi, doğru yolu öyrətdi, dinlərlə birlikdə olmaq, qardaş olmaq, dost olmaq yolunu öyrətdi. Amma bir şeyi də deyim ki, o mənə deyərdi, şeyx, mən səni göndərmişəm oxumağa. Sən mənim tələbəm olmusan o dövrdə. Onu da mən demək istərdim ki, hələ 1968-ci ildə mənim mədrəsəyə gedib oxumağım Heydər Əliyev cənablarının istəyi ilə olubmuş. Mən onu bilmirdim, sonrakı dövrlərdə mənə dedi.

Bu gün mən görürəm ki, Azərbaycan çiçəklənir, Sizin rəhbərliyinizlə dünyada zirvələr fəth edir. Xüsusən Zati-alinizin rəhbərliyi ilə suverenliyimizin, ərazi bütövlüyümüzün tam şəkildə bərpa edilməsi bizim üçün böyük ərməğan olub. Biz onu ancaq röyalarımızda görürdük, fikirləşirdik. Amma həyatda Allah-taala mənə nəsib etdi. Çünki bəzi adamlar var idi, deyirdilər ki, bu, ola bilməz, biz buna inanmırıq. Amma əlhəmdülillah, Sizin rəhbərliyinizlə, Sizin siyasətinizlə, Sizin apardığınız həm daxili, həm xarici siyasət, həm xalqın birliyi ilə Qələbə qazandıq, Zəfər qazandıq. Allah-taala həmişə Sizi uca eləsin, Zəfərinizi uca eləsin, bizim dualarımız Sizinlədir. Minnətdaram ki, Siz mənə bu cür qiymət verdiniz, verirsiniz və mənim qarşımda daha böyük vəzifələr qoyursunuz. Yəni verdiyiniz bu qiymətə görə mən imkan daxilində həyatımda əlimdən gələni edəcəyəm ki, gələcəkdə də İslam dünyasında, dinlər arasında münasibətləri, qardaşlıq münasibətlərini, bir də ki, Azərbaycanın İslam həmrəyliyini, tolerantlığını bütün dünyada yaya bilim və çatdıra bilim.

Mən bir daha Sizə təşəkkürümü bildirirəm ki, sıx iş qrafikinizə baxmayaraq, bizi qəbul etdiniz. Bu, Sizin milli-mənəvi dəyərlərə verdiyiniz böyük qiymət deməkdir. Ona görə də bizi qəbul etdiyinizə görə Sizə öz təşəkkürümüzü bildiririk. Allah-taala Sizə cansağlığı versin! Allah-taala Azərbaycanımızı qorusun! Allah-taala Sizə yeni-yeni Zəfərlər nəsib etsin, inşallah!

**Prezident İlham Əliyev:** Sağ olun.

**Şeyxülislam Allahşükür Paşazadə:** Mən istərdim ki, sözü Türk Dövlətləri Təşkilatının Baş katibinə verim.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

* * *

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyev** çıxış edərək deyib:

- Zati-aliləri, biz Sizin ümumi qardaşlıq naminə göstərdiyiniz səyləri yüksək qiymətləndiririk və Siz bunu bu gün bir daha göstərdiniz.

Dünən də Türk dünyasının dini liderlərinin 7-ci görüşünü keçirdik. Əlbəttə ki, sonrakı beynəlxalq konfrans Bakının beynəlxalq aləmin paytaxtına necə çevrilməsini nümayiş etdirir.

Həmin Qələbədən sonra təkcə Azərbaycan xalqı deyil, həmçinin bütün dünyada yaşayan azərbaycanlılar Sizin liderlik keyfiyyətlərinizdən fərəhlənir.

Mən çox qısa danışacağam. Bildiyiniz kimi, Türk dünyamızın liderliyi sayəsində biz 60-dan çox sahədə əməkdaşlıq edirik və bu sahələrdən biri dindir. Bu məsələ çox vacibdir. Xüsusilə biz Fətva komitəsinin qərarlarını bəyan etmək üçün qərarlar qəbul edirik.

İcazə verin, buna görə müftilərimiz adından Zati-alinizə məktubları təqdim edim.

* * *

**Şeyxülislam Allahşükür Paşazadə:** Çox sağ olun. Onu da deyim ki, bu Türk dövlətlərin dini liderlərinin bu toplantısının ideyası da Sizindir. Sizin adınızdan gəldilər, məsləhət oldu və biz də onu yerinə yetirdik. İnşallah, bunu da davam etdirəcəyik.

Türkdilli Dövlətlərin Dini Liderləri adından çıxış edən Türkiyə Diyanət İşləri İdarəsinin sədri **Safi Arpaquş** deyib:

- Cənab Prezident, əvvəlcə bizi qəbul etdiyiniz üçün minnətdarlığımı bildirmək istəyirəm. Hörmətli qardaşınız, Prezidentimiz cənab Rəcəb Tayyib Ərdoğanın salamlarını Sizə çatdırıram.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Safi Arpaquş:** Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının 7-ci görüşünün və Şeyx Seyid Yəhya Bakuvi Şirvaniyə həsr olunmuş beynəlxalq elmi-praktiki konfransın bu gözəl Azərbaycan şəhərində keçirilməsindən məmnunluğumuzu bildirmək istəyirəm. Ev sahibliyinizə və qonaqpərvərliyinizə görə bütün dostlarım adından ehtiramımı bildirirəm. Azərbaycan xalqına və Azərbaycan dövlətinə əbədi davamlı birlik, həmrəylik və İslam ümməti daxilində qardaşlıq arzulayır, bunun dünya mövcud olduğu müddətdə davam etməsini diləyirik. Bu hisslərlə Sizə bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm və Zati-alinizə hörmətimi bildirirəm.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

# Məhz hərbi güc və övladlarımızın qəhrəmanlığı nəticəsində biz Ermənistanın işğalçı ordusunu öz torpaqlarımızdan qovmuşuq

(Əvvəli 2-ci səhifədə)

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm, sağ olun.

**Şeyxülislam Allahşükür Paşazadə:** Çox sağ olun, minnətdaram. Biz həm də belə qərara gəlmişik ki, bu konfransı Zati-alinizin qarşısında dayanıb çıxış etdiyiniz Ağdam məscidində davam etdirək. Çünki yadımdadır, hələ o dövrdə bütün Qarabağ şəhidlərinin dini mərasimləri həmin məsciddə olurdu.

**Prezident İlham Əliyev:** Bəli, o cümlədən Xocalı qurbanlarının.

**Şeyxülislam Allahşükür Paşazadə:** Bəli, o məscid çox şeylərə şahiddir. Ona görə də belə məsləhət oldu ki, bu gün oraya yola düşək. Sabah, inşallah, orada həm Seyid Yəhya Bakuvi, həm də Türk Dövlətləri Təşkilatı dini liderlərinin konfranslarını həmin məsciddə davam etdirək. Həm də Xocalını, inşallah, ziyarət edəcəyik. Bizim belə bir məsləhətimiz var.

**Prezident İlham Əliyev:** Düzdür, şeyx həzrətləri, tamamilə haqlısınız. Ağdam məscidi tarixi bir məsciddir və hamımız yaxşı bilirik ki, işğal dövründə hələ ki, Ağdam işğal olunmamışdı, bizim şəhid olmuş soydaşlarımızın dini tədbirləri, mərasimləri orada keçirilirdi. O cümlədən Xocalı qurbanlarının da bütün mərasimləri orada keçirilmişdi. Onu da bildirməliyəm ki, biz bərpa işlərinə, demək olar ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan dərhal sonra - 2021-ci ildən başlamışdıq. Bərpa edilən birinci obyekt Ağdam məscidi olmuşdur. Bu günədək artıq 12 məscid, - hansılar ki, ya tamamilə dağıdılmışdı, ya da ki, yarı dağıdılmışdır, - bərpa edilib, yenidən qurulub və bu proses davam etdirilir. O cümlədən siz Şuşada yeni inşa edilən məscidin tikintisi ilə də tanış olacaqsınız.

Yəni, bir daha demək istəyirəm, xalqımızın milli-mənəvi dəyərlərimizə, dinimizə o qədər böyük sevgi və hörməti var ki, biz birinci bərpa işlərini məsciddən başladıq və bu gün bu proses davam etdirilir. Ona görə çox yaxşı bir qərardır və Ağdam da faktiki olaraq indi yenidən qurulur. Onu da bildirməliyəm ki, işğal dövründə Ağdamda bir dənə də olsun bina qalmamışdı. Nə şəhərdə, nə də ki, işğal altında olan kəndlərdə. Bütün binalar söküldü, daşlar talan edildi, aparıldı, bazarlarda satıldı. Bunun əsas məqsədi o idi ki, şəhərlər dağıdılsın, ondan sonra azərbaycanlılar heç vaxt qayıtmasınlar. Bu, birinci məqsəd idi. İkinci məqsəd, əlbəttə ki, təmənna, yəni, talançılıq idi. Sökülən o daşları, binaların dam örtüklərini, çərçivələri - hamısı - hətta qəbir daşlarına qədər - onları da aparmışdılar. Sonra o rəhmətə getmiş insanların o qəbir daşlarında olan adlarını silib onları bir mərmər kimi, qranit kimi bazarlarda satırdılar. Biz, bax belə misli görünməmiş talançılıqla üzləşmişdik. Hətta qəbirləri qazıb rəhmətə getmişlərin qızıl dişlərini belə çıxardırdılar.

Bütün bunları dünya bilməlidir. Dünya 30 il ərzində buna göz yumub. Ermənistanın arxasında duran böyük dövlətlər, o cümlədən və ilk növbədə, mənfur Minsk qrupunun həmsədr ölkələri bütün bu işləri ört-basdır etmək istəyirdi. Ermənistan işğal edilmiş torpaqlara heç bir xarici müşahidəçi buraxmırdı. Ancaq Qərbdən və digər ölkələrdən olan pulla alınmış bəzi siyasətçiləri, ictimai xadimləri gətirirdilər ora göstərsinlər ki, onlar burada necə yaşayırlar. Amma beynəlxalq təşkilatlar buna səssiz qalıb. Birləşmiş Millətlər Təşkilatı, - hansı ki, Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdi ki, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələri çıxarılmalıdır, - səssiz qalıb, ATƏT səssiz qalıb. Avropa Şurası faktiki olaraq işğalı dəstəkləyib. Avropa Parlamenti işğalçı Ermənistana hər zaman dəstək verib və bu gün də bu belədir. Yəni, bax bu, bizə olan münasibətin kiçik bir təsviridir. Görün, biz kimlərlə üzbəüz qalmışdıq, yəni, Ermənistan təkbaşına deyildi. Ermənistan təkbaşına olsaydı, bu məsələ çoxdan həll olunardı. Yaxud da ki, o vaxt bu işğala, bu vəhşiliyə, bu soyqırımına görə Ermənistana beynəlxalq sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan həll olunardı. Eləmədilər, bilərəkdən, qəsdən. İndi yeri gəldi-gəlmədi, hər yerə sanksiyalar qoyulur. Amma yaxşı, Ermənistan burada başqa dövlətin 20 faiz torpağını zəbt edib, 700 min insanı oradan qovub, 250 min insanı - azərbaycanlıları Ermənistandan qovub, dağıdıb hər şeyi, bütün şəhərləri. Sən niyə ona sanksiya tətbiq etmirsən? Bu, deməli, ikili standartlardır. Haradan gəlir bu ikili standartlar, aydın məsələdir. Hər halda İslam aləmindən gəlmir. Ona görə bax, biz hamımız bunu bilməliyik.

Mən bir də qayıdıram ön sözümə ki, bizim birliyimiz hər birimizi gücləndirəcək. Çünki biz hər birimiz tək qalanda çətinliklərlə üzləşə bilərik. Amma Türk dünyası, Qafqaz, İslam aləmi bir yerdə olanda heç kim bizə bata bilməz. Heç kim bizə qarşı ədalətsizlik edə bilməz. Ona görə də biz dövlət olaraq və dövlət siyasəti apararaq bu amili həmişə üstün tuturuq. Çünki biz bu ədalətsizliklə üzləşmişdik. 30 il biz bütün Avropa təşkilatlarında öz səsimizi ucaldırdıq, həqiqəti çatdırmağa çalışırdıq. Elə mən özüm şəxsən 2001-ci ildə, - o vaxt Milli Məclisin deputatı idim, Azərbaycan Avropa Şurası Parlament Assambleyasına üzv olmuşdu, mən də Azərbaycan nümayəndə heyətinin başçısı idim, - bizim nümayəndə heyəti oraya gələndə, birinci növbədə bu məsələni qaldırdıq ki, ədalətsizliyə son qoyulmalıdır və nə tələb edirdik? Tələb etmirdik ki, Avropa Şurası, gedin, Ermənistana qarşı vuruşun. Tələb edirdik ki, siyasi qərar qəbul edin. İşğalçını işğalçı adı ilə çağırın və siyasi qərarın qəbul edilməsi faktiki olaraq bir siyasi qiymətdir. Bunu etmək istəmədilər. Siyasi qiymət verilmədi. Əksinə, bizi qaralayırdılar, bizi ləkələyirdilər və bu gün də bu, davam edir. Baxın, indi Azərbaycan gücləndikcə, necə deyərlər, öz potensialını tam işə saldıqca, yenə də bizə qarşı Qərbdən çirkin media kampaniyası aparılır. Yəni, bizi qaralayırlar, Azərbaycan haqqında hər gün yalan, iftira, böhtanla dolu yazılar dərc edilir.

Avropa Şurasında Ermənistana qarşı sanksiya tətbiq edilmədi. Amma biz ki, 2023-cü ilin sentyabrında Qarabağı tam azad etdik, separatçılığın kökünü kəsdik və separatçıları həbs etdik, deməli, ondan dörd ay sonra Avropa Şurası bizə qarşı sanksiya tətbiq etdi. Bax, onların əsl siması budur. Avropa Parlamenti rüşvətxorlar yuvasıdır. Bunu mən tam məsuliyyətlə deyirəm - rüşvətxorlar yuvasıdır Avropa Parlamenti. Onun vitse-prezidentinin evindən çamadanlarla dolu milyonlarla dollar çıxdı, hamısını ört-basdır etdilər. Elə bil olmayıb bu. Onun adı bəllidir, o, Yunanıstandan olan bir xanım deputatdır. Neçə il keçib onun üstündən? Bir ölçü götürülüb ona qarşı? Yox! Məsuliyyətə cəlb edilib? Yox! Sərbəst buraxılıb. Avropa Parlamenti bax, bu islamofoblardan ibarətdir və bu da daim diqqət mərkəzində olmalıdır.

Bizim dinimizə qarşı, İslam dünyasına qarşı elan olunmamış müharibə gedir və islamofobiya onun kiçik bir tərkib hissəsidir. Müsəlman aləmini gözdən salmaq, ləkələmək, terrorla eyniləşdirmək, bizim dəyərlərimizə qarşı, müqəddəs "Qurani-Kərim"ə qarşı o təhqiredici faktlar. Siz hesab edirsiniz ki, bunlar elə təsadüfən baş verir? Yox! Bu, məqsədyönlü siyasətdir. Biz də nə qoymalıyıq bunun qabağına? Ancaq birliyimizi! Ona görə bu birliyə çağırış, sadəcə olaraq, şüar deyil. Azərbaycan çox nadir müsəlman ölkələrindəndir ki, Avropa təşkilatlarında iştirak edir. Ona görə biz bilirik orada nələr baş verir. Avropa Şurasının üzvü olaraq biz bu ədalətsizliklərlə üzləşmişdik, üzləşirik və yəqin ki, üzləşəcəyik. Bizə qarşı elan edilməmiş bu qarayaxma kampaniyası heç vaxt dayanmayacaq. Nə üçün? Çünki biz heç kimin qabağında baş əymirik və əyməyəcəyik, öz sözümüzü deyirik, öz milli mənliyimizi qoruyuruq, öz həyat tərzimizi qoruyuruq. İmkan vermirik ki, xalqımıza və dinimizə yad olan bəzi meyillər Azərbaycanda kök salsın. Mənəviyyat keşikçiləriyik. Bax, buna görə bizə qarşı bu kampaniyalar aparılır. Mən bizim görüşümüzün çərçivələrini bir qədər genişləndirdim, yəni sadəcə olaraq, öz fikirlərimi sübutlarla əsaslandırmaq üçün. Yəni, bir daha bu əsas mesaj odur ki, biz hamımız birliyə çalışmalıyıq. Yenə də deyirəm, din xadimlərinin sözləri bütün müsəlman ölkələri üçün xüsusi məna daşıyır. Buyurun.

* * *

Müsəlman Ağsaqqalları Şurasının baş katibi **Məhəmməd Əbdülsalam** çıxış edərək deyib:

- Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri Prezident İlham Əliyev.

Şeyxülislam Allahşükür Paşazadə həzrətləri.

Möhtərəm alimlər, mötəbər konfransın hörmətli iştirakçıları.

Cənab Prezident, icazənizlə, çıxışıma Sizin sözlərinizə münasibət bildirməklə başlamaq istərdim.

Cənab Prezident, Siz ölkənizi həm dünyaya, həm də İslam aləminə İslam qardaşlığının aparıcı nümunəsi kimi təqdim etməyə nail olmusunuz. Bu qardaşlıq bütün parçalanmaları, qarşıdurmaları, məzhəb və təriqət ayrı-seçkiliklərini aşaraq, Sizin də qeyd etdiyiniz kimi, həll yolunun İslam həmrəyliyindən və birliyindən keçdiyini bəyan edir.

Alimlərin və fəqihlərin rolu olduqca mühüm məsələdir. Çünki diplomatiyanın və siyasətin səsi ilə yanaşı, alimlərin və mütəfəkkirlərin də güclü səsi olmalıdır.

İcazənizlə, Siz danışarkən və ölkənizin keçdiyi bu mühüm, həssas mərhələləri bütün aydınlığı ilə nəql edərkən ağlıma gələn bir fikri Sizinlə bölüşüm. Bu, Sizi dinləyənlərin ilk dəfə eşitdiyi bir fikir deyil. Mən Sizi bir neçə dəfə dinləmişəm və Sizin öz məsələnizdən, öz amalınızdan iman və inamla danışdığınızın şahidi olmuşam.

Bütün bunları bir ifadə ilə belə təsvir etmək istərdim: Siz müharibədə Sərkərdə olduğunuz kimi, sülhdə də Sərkərdəsiniz. Bu gün bizim ehtiyac duyduğumuz məhz budur.

Cənab Prezident, icazənizlə, Sizin şəxsinizdə bütün Azərbaycan xalqına Əl-Əzhər Əş-Şərifin Böyük İmamı, Şeyx Əhməd ət-Tayyib həzrətlərinin salamlarını, ehtiramını, məhəbbətini və dualarını çatdırım. O, bu ölkəyə böyük dəyər verir və məndən xahiş etdi ki, dünən keçirilən konfransda onun Şeyx Yəhya Bakuvi həzrətlərinin müridlərindən olduğunu, Misirdə onun davamçıları arasında yer alan Xəlvətiyyə təriqətinə mənsub olduğunu bəyan edim. Bu təriqətin əsas sütunlarından və böyük simalarından biri də qədim dövrün, eyni zamanda, müasir dünyamızın müsəlman filosofu Şeyx Seyid Yəhya Bakuvidir.

Sizin də qeyd etdiyiniz və vurğuladığınız kimi, dünyamızın getdikcə daha çox qarşıdurma və parçalanmalarla üzləşdiyi bir vaxtda biz belə alimlərin irsinə ehtiyac duyuruq. Biz Seyid Yəhya Bakuvinin elmi irsinə, düşüncəsinə və təliminə ehtiyac duyuruq ki, mötədillik, mehriban qonşuluq, dövlətlərin suverenliyinə hörmət, xalqların və ölkələrin təhlükəsizliyinin qorunması kimi dəyərlərin yalnız beynəlxalq münasibətlərdə, diplomatiyada və siyasətdə qəbul edilmiş qaydalar deyil, həm də dini, əxlaqi və bəşəri dəyərlər olduğunu bir daha təsdiq edək.

Sizin çıxışınızda qeyd etdiyiniz, eləcə də konfransda mötəbər alimlərin vurğuladıqları kimi, din adı altında insanın öz vətəninin hüdudlarını, ləyaqətini və sabitliyini aşan, vətənin, eləcə də digər ölkələrin təhlükəsizliyini və sabitliyini təhdid edən hər hansı sədaqət anlayışı mövcud ola bilməz.

Cənab Prezident, biz hamımızın - Əl-Əzhər Əş-Şərifin, bu müdrik insanın - şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin üzvü olmaq şərəfinə nail olduğu Müsəlman Ağsaqqalları Şurasının, həmçinin türk dövlətlərinin ölkələrin möhtərəm alimlərinin adından bəyan edirik ki, Şeyx Seyid Yəhya Bakuvinin elmi irsi və İslam həmrəyliyinə dair sufi fəlsəfəsi bu gün dünyamızın ən çox ehtiyac duyduğu dəyərlərdəndir. Bu irs insan ləyaqətini, xalqların və dövlətlərin sabitliyini qorumağa xidmət edir.

Cənab Prezident, sonda Sizə demək istəyirəm ki, xalqınız Sizinlə fəxr etdiyi kimi, biz də Sizinlə fəxr edirik. Biz Sizin əməyiniz, fədakarlığınız, İslam ümmətinə sədaqətiniz, İslama və müsəlmanlara, xalqınıza və regionunuza xidmətiniz, həmçinin alimlərin irsinə göstərdiyiniz hörmət və ehtiram ilə fəxr edirik.

Çıxışınızın əvvəlində alimlərin yaşadıqları tarixləri və bu ölkədən keçmiş, burada yetişmiş böyük alimləri xronoloji ardıcıllıqla qeyd etməyiniz mənim üçün çox təsirli oldu. Siz bu irsin bu gün də həyatımız üçün bir dəyər olduğunu vurğuladınız. Bütün dünyada liderlərdən, mütəfəkkirlərdən və alimlərdən ehtiyac duyduğumuz yanaşma məhz budur.

Bir daha qeyd edirəm: Siz müharibədə qəhrəman oldunuz, eyni zamanda, sülhdə də qəhrəman oldunuz.

Dünən Siz böyük sevgi və ehtiramla bəyan etdiniz ki, layiq olduğunuz və böyük xidmətinizə, Azərbaycan və Ermənistan arasında tarixi sülh sazişinin əldə olunmasında göstərdiyiniz böyük səylərə görə qazandığınız "Zayed İnsan Qardaşlığı Mükafatı"nı xalqınıza, azad edilmiş ərazilərə və onun inkişafına töhfə vermək məqsədilə bağışlayırsınız. Bu, Sizin vətəninizə və ümmətinizə sədaqətinizin daha bir nümunəsidir.

Sizə dərin təşəkkürümü bildirirəm. Allah Sizə bərəkət versin, Azərbaycana bərəkət versin.

Qardaşımın da qeyd etdiyi kimi, Azərbaycan artıq konfranslar paytaxtına çevrilib. Həqiqətən də, Azərbaycan mühüm və əhəmiyyətli konfransların paytaxtına çevrilmişdir.

Zati-alinizə, Sizinlə birlikdə çalışan bütün şəxslərə, eləcə də bizim qardaşımız və ağsaqqalımız hesab etdiyimiz möhtərəm şeyxülislam həzrətlərinə dərin ehtiramımızı, minnətdarlığımızı və ən xoş arzularımızı bildiririk.

Allah Sizə bərəkət versin. Təşəkkür edirəm.

* * *

**Prezident İlham Əliyev:** İlk növbədə, xahiş edirəm ki, mənim salamlarımı və hörmətimi böyük İmama çatdırasınız. Onunla Misirdə, Əl-Əzhərdə görüşümü mən heç vaxt unutmayacağam. O cümlədən onun Bakıda olmasını da məmnunluqla xatırlayıram. Onu yenidən Bakıda görməyi çox istərdim və müvafiq məktublar da göndərildi. Ümid edirəm ki, bizim dəvətimizi qəbul edəcək.

(Ardı 4-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

# Məhz hərbi güc və övladlarımızın qəhrəmanlığı nəticəsində biz Ermənistanın işğalçı ordusunu öz torpaqlarımızdan qovmuşuq

(Əvvəli 3-cü səhifədə)

Eyni zamanda, sizə bir daha təşəkkürümü bildirmək istəyirəm, Şeyx Zayed adına olan bu mükafata görə. Bu mükafat çox böyük məna daşıyır, təbii ki, mənim üçün. Çünki çox mötəbər bir münsiflər heyəti tərəfindən qərar verilmişdir və bilirəm ki, orada seçim prosesi çox dəqiqdir və çox həssasdır, bir çox amillər nəzərə alınır. Buna görə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, bu mükafat sülhə atılmış növbəti bir addım idi. Bu, bizim sülh gündəliyimizi dəstəkləyən bir addım idi. Çünki mən bir daha demək istəyirəm, biz indi Ermənistanla sülh şəraitində yaşayırıq. Ancaq bizim ürəyimizdə olan yaralar sağalmayıb. Xalqımızın qəlbində olan o yaralar sağalmayıb və nə vaxt sağalacaq, bunu heç kim bilə bilməz.

Qanlı toqquşmalardan, 30 illik işğaldan cəmi iki il keçməmiş sülhə addımlamaq çox böyük həm cəsarət tələb edir, uzaqgörənlik tələb edir və eyni zamanda, bir daha Azərbaycanın sülh gündəliyini nümayiş etdirir. Əlbəttə, müxtəlif yollar seçilə bilərdi və təbii ki, seçim Azərbaycanın idi. Çünki Azərbaycan müharibədə qalib gəlmişdir. Ermənistan tam məğlub edilmişdir, kapitulyasiya aktına imza atmışdır və əlbəttə ki, biz istənilən gündəliyi diktə edə bilərdik. Ancaq biz sülh gündəliyini seçdik və bu seçimin nə qədər müdrik olması bu gün bütün dünyaya, necə deyərlər, aydındır və bütün dünya bunu görür. Çünki bu qarşıdurma, bu müharibə nə vaxtsa dayanmalı idi və onu biz dayandırmasaq, onu heç kim dayandıra bilməzdi. Biz onu dayandırmasaydıq, bu, elə əbədi davam edəcəkdi, qan töküləcəkdi, şəhidlər veriləcəkdi və ölkəmizin normal inkişafı mümkün olmayacaqdı. Ona görə bax, bu sülh gündəliyini praktiki işlərlə dəstəkləyən məhz Sizin mənə və Ermənistanın Baş nazirinə verdiyiniz mükafat idi. Bəli, bəyanatlar verilmişdir. Ermənistanla Azərbaycan arasındakı sülh müqaviləsinin paraflanmasına, demək olar ki, bütün beynəlxalq birlik dəstək vermişdir, yəni, siyasi bəyanatlar verilmişdir. Amma bu mükafat onları daha da gücləndirdi. Əbu-Dabidə sizin təşkil etdiyiniz o təntənəli mərasim, sizin şəxsi münasibətiniz və orada dünya liderlərinin sülh prosesinə dəstək vermələri, əlbəttə ki, bu müsbət meyilləri gücləndirir.

Biz cəmi bir ildən bir qədər çox - bir il bir aydır sülh şəraitində yaşayırıq. Sülh hələ ki, tam oturuşmayıb. Bəli, bizim güclü iradəmiz var. Biz sülh gündəliyinə sadiqik. Ancaq dünyada və ətrafımızda gedən proseslər, - indi hər kəs görür, - faktiki olaraq idarəolunmaz səviyyəyə gəlib çıxıb və hətta xaotik vəziyyət dərinləşə bilər, həm mövcud münaqişələr çərçivəsində, həm də genişlənə bilər. Biz görürük ki, artıq bir çox ölkələr müxtəlif bölgələrdə qarşıdurmadadırlar. Yəni, bu, iki ölkə arasındakı qarşıdurmalar deyil. Artıq bir çox ölkələr bu qarşıdurmalarda fəal iştirak edir və bu qanlı toqquşmaların coğrafiyası genişlənir. Ona görə Türk dünyasını, Qafqaz bölgəsini sülh şəraitində saxlamaq və sülhü qorumaq üçün hər birimiz böyük səylər göstərməliyik. Ona görə mən bir daha sizə təşəkkürümü bildirirəm ki, sizin bizə verdiyiniz o mükafat həm ictimai fikirdə, həm ondan sonra siyasi addımların atılmasında və sülhü artıq geridönməz etməsində çox böyük rol oynadı. Ona görə bir daha təşəkkür edirəm və bütün xoş sözlərinizə görə sizə minnətdaram.

* * *

**Şeyxülislam Allahşükür Paşazadə:** İslam Əməkdaşlıq Təşkilatının nümayəndəsi, IRCICA-nın baş direktoru Mahmut Erol Kılıç cənabları da bir-iki kəlmə danışmaq istəyir.

**Prezident İlham Əliyev:** Buyurun.

IRCICA-nın (İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi) baş direktoru **Mahmut Erol Kılıç** çıxış edərək deyib:

- İslam Əməkdaşlıq Təşkilatının (İƏT) törəmə mədəniyyət qurumu olan IRCICA adından gözəl Bakı şəhərində bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə, cənab Prezident, Sizə bir daha minnətdarlığımı ifadə etmək istəyirəm. Bildiyiniz kimi, İƏT 57 üzv dövləti bir araya gətirir və onlardan biri Azərbaycandır, biri də mənim ölkəm Türkiyədir. Tarix, mədəniyyət və incəsənət üzrə fəaliyyət göstərən İƏT-in törəmə qurumu IRCICA-nın mənzil-qərargahı İstanbuldadır. Biz gözəl konfranslar təşkil edirik. Mən fikirlərimdən birini sizinlə bölüşmək istəyirəm. Xüsusilə İslam dünyasında dinin anlayışı dəhşətli şəkildə təhrif olunur. Buna bəzi regionlarda sələfilik və bu kimi adlar verilir. Bu kimi məfhumlar dini məhv edir. Lakin biz bilirik ki, Azərbaycanda gözəl Sufizm tarixi var. Füzuli, Seyid Yəhya Şirvani, Neymətulla Naxçıvani kimi mülayim düşüncəli sufi mütəfəkkirlər və bir çox digərləri olub. Ona görə mən sizdən şəxsən xahiş edirəm ki, xüsusilə İslam dünyasına və bütün dünyaya İslamın bu gözəl və mülayim tərəfini göstərmək üçün tərəfimizdən daha çox tədbirlər görülməlidir.

Bir daha çox sağ olun.

* * *

**Şeyxülislam Allahşükür Paşazadə:** Mən də sizə təşəkkürümü bildirmək istəyirəm. Bilirsiniz nəyi? Mədrəsə, Mir-i Ərəb mədrəsəsi, Siz ki, oraya getdiniz.

**Prezident İlham Əliyev:** Şəkil də çəkdirdik Sizin portretinizin fonunda. Mən Mehriban xanıma dedim, gəlin, şəkil çəkdirək və şeyxə göndərin. O şəkil ki, onun mədrəsəsində dostumuzla çəkdirdik.

**Şeyxülislam Allahşükür Paşazadə:** Şavkat Mirziyoyevin babası da orada oxuyub.

**Prezident İlham Əliyev:** Bəli, şəkli var, sizin də şəkliniz.

**Şeyxülislam Allahşükür Paşazadə:** Bəli, mənim də şəklim var. Minnətdaram ki, Siz o milli-mənəvi dəyərlərə bir daha qiymət verdiniz. Əlbəttə, bu görüş bizim hamımızı çox sevindirdi. Bu, türk dövlətlərinin xüsusi bir görüşü idi.

**Prezident İlham Əliyev:** Belə tez-tez yığışırsınız.

**Şeyxülislam Allahşükür Paşazadə:** Bu görüşlərdə bir mülayimlik, bir mərhəmət var. Bu görüşlər türkdilli xalqları daha sıx birləşdirir.

**Prezident İlham Əliyev:** Təbii ki, indi türk dövlətlərinin müsəlman liderlərinin görüşləri müxtəlif ölkələrdə keçirilir və sıra ilə keçiriləcək. Amma bax, bu konfrans ki, keçirilir, bunu biz ənənəvi edə bilərik. Ənənəvi edə bilərik, ya hər il, ya iki ildən bir ki, bu, həm gözəl bir toplantı kimi, həm fikir mübadiləsi, həm müzakirə, həm də birliyin nümayişi olsun. Ona görə bu haqda da fikirləşin. Yenə də təşəbbüsü mən irəli sürürəm, sizdən də konkret təkliflər gözləyirəm.

**Şeyxülislam Allahşükür Paşazadə:** Minnətdarlığımızı bildiririk, çox sağ olun, bu qədər vaxtınızı bizə ayırdınız.

**Prezident İlham Əliyev:** Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Parlaq gələcəyin yolu təhsildən keçir

Hər il sentyabrın 15-də Azərbaycanda Bilik Günü qeyd olunur və təhsil müəssisələrində yeni dərs ili başlayır. Bu tarix ölkənin təhsil həyatında mühüm yer tutur. Təhsil həm də insanın bilik və bacarıqlarının formalaşdığı, dünyagörüşünün genişləndiyi və gələcək fəaliyyətə hazırlaşdığı mühüm mərhələdir.

15 sentyabrın Bilik Günü kimi təsis edilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli 114 nömrəli Fərmanı ilə müəyyənləşdirilib. Həmin Fərmana əsasən, sentyabrın 15-i Bilik Günü elan olunub və bütün təhsil müəssisələrində dərslərin həmin gündə başlanması müəyyən edilib. Bununla yeni tədris ilinin başlanması vahid tarixdə təsbit olunub. Ötən illər ərzində Azərbaycanda təhsil sisteminin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Yeni təhsil müəssisələrinin yaradılması, mövcud təhsil ocaqlarının inkişaf etdirilməsi, tədrisin məzmununun müasir tələblərə uyğunlaşdırılması və peşəkar kadr hazırlığının gücləndirilməsi bu prosesin əsas istiqamətlərindəndir. Təhsilə göstərilən diqqət ölkənin gələcək inkişafı üçün zəruri olan insan kapitalının formalaşdırılmasına yönələn dövlət siyasətinin mühüm tərkib hissəsidir.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində təhsil və peşəkar kadr hazırlığı xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma yalnız ümumi və ali təhsil sahəsində deyil, hərbi təhsil sistemində də özünü göstərir. Çünki müasir ordunun gücü yalnız texniki imkanlarla deyil, həmin imkanlardan düzgün istifadə edə bilən, yüksək hazırlığa və peşəkarlığa malik hərbi qulluqçularla da müəyyən olunur. Hərbi xidmət xüsusi bilik, bacarıq və məsuliyyət tələb edir. Hərbi qulluqçu nəzəri hazırlığa yiyələnməklə yanaşı, əldə etdiyi bilikləri praktiki fəaliyyətində tətbiq etməyi, müxtəlif şəraitlərdə düzgün qərar qəbul etməyi, müasir silah və texnologiyalardan istifadə etməyi bacarmalıdır. Buna görə də hərbi təhsilin inkişafı Azərbaycan Ordusunun peşəkar kadr potensialının gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycanda milli hərbi təhsilin inkişafında Ulu Öndər Heydər Əliyevin xidmətləri xüsusi yer tutur. Hələ sovet dövründə milli hərbi kadrların hazırlanmasının gələcəkdə müstəqil Azərbaycan üçün mühüm əhəmiyyət daşıyacağını nəzərə alan müdrik və uzaqgörən Dahi Rəhbərin təşəbbüsü ilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradıldı. Həmin təhsil ocağı azərbaycanlı gənclərin hərbi peşəyə hazırlanması və milli zabit kadrlarının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyırdı. Eyni zamanda, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ali hərbi məktəblərində təhsil alması üçün də imkanlar genişləndirildi. C.Naxçıvanski adına Hərbi Li-




sey sonrakı illərdə də milli hərbi təhsil sisteminin mühüm təhsil ocaqlarından biri kimi fəaliyyətini davam etdirdi. 24 noyabr 1997-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə məktəb Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılmışdır. Ulu Öndər Heydər Əliyev müstəqillik dövründə də liseyin fəaliyyətinə xüsusi diqqət göstərirdi. Liseyin məzunları Azərbaycanın Silahlı Qüvvələrinin formalaşmasında və inkişafında mühüm rol oynayıblar. Müstəqillik illərində milli hərbi təhsil sisteminin inkişafı davam etdirildi. Yeni hərbi təhsil müəssisələrinin yaradılması, mövcud təhsil ocaqlarının maddi-texniki bazasının və tədris imkanlarının gücləndirilməsi, hərbi kadr hazırlığının müasir tələblərə uyğunlaşdırılması istiqamətində mühüm addımlar atıldı. Bu proses Azərbaycan Ordusunun peşəkar kadr potensialının formalaşdırılmasında mühüm rol oynadı.

Bu istiqamətdə mühüm addımlardan biri Prezident İlham Əliyevin 5 mart 2022-ci il tarixli müvafiq Fərmanı ilə Milli Müdafiə Universitetinin yaradılması oldu. Bununla hərbi təhsil müəssisələrinin fəaliyyətinin daha sistemli şəkildə təşkili və müxtəlif səviyyələr üzrə hərbi kadr hazırlığının vahid struktur daxilində əlaqələndirilməsi üçün yeni imkanlar yaradıldı. Hazırda Milli Müdafiə Universitetinin strukturunda müxtəlif təhsil pillələrini əhatə edən hərbi təhsil müəssisələri fəaliyyət göstərir. Cəmşid Naxçıvanski və Heydər Əliyev adına Hərbi liseylərdə orta təhsil səviyyəsində, Hərbi kolleclərdə subbakalavr səviyyəsində, Heydər Əliyev adına Hərbi İnstitutda isə ali hərbi təhsil səviyyəsində kadr hazırlığı həyata keçirilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü təhsil siyasəti və Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahəyə göstərdiyi diqqət və qayğı ölkədə təhsilin inkişafına verilən yüksək önəmin aydın ifadəsidir.

Hərbi təhsilin müasir tələblərə uyğun inkişaf etdirilməsi yalnız tədris prosesinin təşkili ilə məhdudlaşmır. Burada elmi fəaliyyət, müasir texnologiyaların öyrənilməsi, idarəetmə bacarıqlarının formalaşdırılması və praktiki hazırlıq da mühüm yer tutur. Bu yanaşma gələcək zabitlərin nəzəri biliklərlə yanaşı, xidmət zamanı qarşıya çıxan məsələləri düzgün qiymətləndirmək və müvafiq qərarlar qəbul etmək bacarıqlarının inkişafına xidmət edir. Güclü və müasir ordunun formalaşdırılması üçün yüksək hazırlıqlı, peşəkar və müasir texnologiyaları mənimsəyən hərbi kadrların yetişdirilməsi mühüm şərtdir. Bu baxımdan hərbi təhsil Azərbaycan Ordusunun inkişafının mühüm mərhələlərindən biri olaraq qalır. Bilik Gününün əhəmiyyəti də bu məqamda daha aydın görünür. Bilik yalnız nəzəri məlumatların mənimsənilməsi ilə məhdudlaşmır. Onun praktiki tətbiqi, bacarıq və təcrübə ilə tamamlanması peşəkarlığın əsasını təşkil edir. Hərbi sahədə isə bu yanaşma xüsusi əhəmiyyət daşıyır. Çünki yüksək hazırlıq nəzəri bilik, praktiki məşğələ, hərbi nizam-intizam və məsuliyyətin vəhdəti nəticəsində formalaşır.

Bu gün Azərbaycan təhsilinin qarşısında duran əsas vəzifələrdən biri müasir dövrün tələblərinə cavab verən, öz sahəsini dərindən bilən və daim inkişaf etməyə hazır olan mütəxəssislərin yetişdirilməsidir. Hərbi təhsil qarşısında da yüksək peşəkarlığa, müasir düşüncəyə, liderlik və idarəetmə bacarıqlarına malik hərbi kadrların hazırlanması kimi mühüm vəzifələr dayanır.

15 sentyabr - Bilik Günü münasibətilə bütün şagird və tələbələri, kursantları, təhsil sahəsində çalışanları, hərbi təhsil müəssisələrinin kollektivlərini təbrik edir, onlara yeni tədris ilində uğurlar arzulayırıq. İnanırıq ki, qazanılan hər yeni bilik, formalaşan hər yeni bacarıq və əldə edilən hər bir peşəkar təcrübə Azərbaycanın gələcək inkişafına, o cümlədən güclü və müasir ordumuzun daha da qüdrətlənməsinə xidmət edəcəkdir.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri Çin Xalq Respublikasında işgüzar səfərdədir







Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov 13-cü Pekin Syanşan Forumunda iştirak etmək üçün Çin Xalq Respublikasında işgüzar səfərdədir.

General-polkovnik Zakir Həsənov Çin Aerokosmik Elmi və Sənaye Korporasiyasının (CASIC - China Aerospace Science and Industry Corporation) istehsalat bazasında olub. Burada CASIC-in Baş direktoru cənab Çen Şaoyan ilə görüşən müdafiə naziri müdafiə təyinatlı müxtəlif sistemlərə baxış keçirib.







Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Çin Xalq Respublikasının milli müdafiə naziri admiral Dong Jun ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, beynəlxalq təhlükəsizlik və sabitlik, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

* * *

Çin Xalq Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla Belarus Respublikasının müdafiə naziri general-leytenant Viktor Xrenin arasında görüş keçirilib.

Görüşdə nazirlər Azərbaycanla Belarus arasında hərbi, hərbi-texniki əməkdaşlığın inkişaf perspektivlərini və qarşılıqlı maraq doğuran digər mövzuları müzakirə ediblər.

* * *

Sentyabrın 16-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "Stabillik naminə konsensus yaratmaq, təhlükəsizlik idarəçiliyini birlikdə inkişaf etdirmək" şüarı ilə keçirilən 13-cü Pekin Syanşan Forumunun rəsmi açılış mərasimində iştirak edib.





Beynəlxalq təhlükəsizlik məsələləri üzrə dialoq və əməkdaşlığın təqdim edildiyi Pekin Syanşan Forumu dövlətlər arasında etimad və qarşılıqlı anlaşmanı möhkəmləndirmək, regional və qlobal təhlükəsizlik problemlərinin sülh yolu ilə həlli üçün ən mühüm platformalardan hesab olunur.

Qeyd edək ki, 100-dən çox ölkənin müdafiə qurumlarının rəhbər şəxslərinin, beynəlxalq təşkilatların və analitik mərkəzlərin nümayəndələrinin, eləcə də yüksək rütbəli hərbçilərin, hərbi və təhlükəsizlik məsələləri üzrə nüfuzlu ekspertlərin iştirakı ilə keçirilən forum sentyabrın 17-dək davam edəcək.

# Bakını azadlığa aparan 100 günlük yürüş

1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə ölkə sakit və sabit siyasi şəraitdə müstəqillik qazanmışdı. Birinci Dünya müharibəsi davam edir, Rusiya imperiyası 1917-ci il inqilablarından sonra dağılır, Cənubi Qafqazda əvvəlki idarəçilik sistemi aradan qalxırdı. Regionda siyasi hakimiyyət uğrunda mübarizə gedir, müxtəlif silahlı qüvvələr ayrı-ayrı ərazilərə nəzarət edirdi. Zaqafqaziya Seyminin dağılmasından sonra Gürcüstan, Azərbaycan və Ermənistan müstəqilliklərini elan etdilər. Azərbaycan Xalq Cümhuriyyəti mayın 28-də müstəqilliyini elan etsə də, yeni dövlətin bütün ərazisinə faktiki nəzarət etmək imkanları hələ formalaşmamışdı. Hökumət Gəncədə fəaliyyət göstərirdi, Bakı isə onun nəzarətində deyildi.

Paytaxt Bakı həmin dövrdə Azərbaycanın ən böyük siyasi, iqtisadi və sənaye mərkəzi olmaqla yanaşı, dünyanın mühüm neft rayonlarından birinin mərkəzi idi. Bakı nefti Birinci Dünya müharibəsinin gedişində xüsusi strateji əhəmiyyət qazanmışdı. Neft orduların, donanmaların, nəqliyyatın və sənayenin fəaliyyəti üçün əsas resurslardan biri idi. Buna görə şəhərə nəzarət yalnız iqtisadi üstünlük deyil, həm də ciddi hərbi-strateji imkan demək idi. Bakı limanı, dəmir yolu əlaqələri və Xəzər üzərindəki mövqeyi şəhərin əhəmiyyətini daha da artırırdı. Məhz buna görə 1918-ci ildə Bakı uğrunda mübarizənin iştirakçıları yalnız yerli siyasi qüvvələr deyildi. Birinci Dünya müharibəsinin son mərhələsində şəhər müxtəlif güclərin maraqlarının toqquşduğu əsas məntəqələrdən birinə çevrilmişdi. Bakı Sovetinin qüvvələri, sonradan Sentrokaspi Diktaturası, erməni silahlı dəstələri və Britaniya hərbi qüvvələri şəhərin nəzarətdə saxlanılmasında iştirak edirdilər. Azərbaycan Xalq Cümhuriyyəti üçün isə Bakının azad olunması dövlətin siyasi və iqtisadi dayaqlarının təmin edilməsi, hökumətin paytaxta köçürülməsi və müstəqilliyin real hakimiyyətlə möhkəmləndirilməsi demək idi. Belə bir şəraitdə Azərbaycan hökumətinin qarşısında Bakıya doğru irəliləmək və paytaxt üzərində nəzarəti təmin etmək kimi mühüm hərbi vəzifə dayanırdı. Lakin yeni yaradılan Azərbaycan dövlətinin nizami ordusu hələ formalaşma mərhələsində idi. Ordunun qarşısında duran əsas hədəf Bakının azad edilməsi idi. Bakıya gedən yol 1918-ci ilin yayında Gəncədən başlayırdı. Qarşıda isə sadəcə bir şəhər yox, Azərbaycanın siyasi və iqtisadi taleyinin həll olunacağı məkan dayanırdı. 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə hökumət Gəncədə fəaliyyət göstərirdi. Azərbaycanın paytaxtı elan edilən Bakıda isə bolşeviklərin rəhbərlik etdiyi Bakı Soveti hakimiyyətdə idi. Sonrakı mərhələdə siyasi vəziyyət dəyişdi. Beləliklə, Bakı uğrunda mübarizə getdikcə daha mürəkkəb hərbi-siyasi xarakter aldı. Azərbaycan hökuməti üçün Bakının azad edilməsi dövlətçiliyin möhkəmləndirilməsi baxımından həyati əhəmiyyət daşıyırdı. Lakin yeni yaradılan dövlətin özünün nizami ordusu hələ formalaşma mərhələsində idi. Bu səbəbdən Osmanlı imperiyasının Qafqaza göndərdiyi hərbi qüvvələr və Azərbaycan milli hərbi hissələri əsasında Qafqaz İslam Ordusu yaradıldı. Ordunun komandanlığına Nuru paşa təyin edildi. Qarşıya qoyulan məqsəd aydın idi: Gəncədən başlayan hərbi yürüş Bakının azad edilməsi ilə nəticələnməli idi.



15 sentyabr 1918-ci il. Qafqaz İslam Ordusu Bakıda

1918-ci ilin iyununda Qafqaz İslam Ordusu Bakı Sovetinin qüvvələri ilə ilk ciddi toqquşmalara girdi. İyunun 27-dən iyulun 1-dək Göyçay istiqamətində gedən döyüşlər bu yürüşün taleyində mühüm rol oynadı. Bakı Soveti qüvvələrinin hücumu dayandırıldı və təşəbbüs tədricən Qafqaz İslam Ordusunun əlinə keçdi. Göyçay döyüşlərindən sonra hərbi əməliyyatların istiqaməti dəyişdi. Qafqaz İslam Ordusunun hissələri Kürdəmir, Ağsu və Şamaxı istiqamətlərində irəliləməyə başladı.

(Ardı 8-ci səhifədə)

*Əlahiddə Ümumqoşun Ordu - 34*

# Ümummilli Liderin başladığı yolun Müzəffər Ali Baş Komandan zirvəsi

**(Əvvəli 1-ci səhifədə)**



Lakin bu tarixi hadisəyə aparan yol daha əvvəl başlamışdı. O dövrdə xalqın təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Ümummilli Lider Heydər Əliyev olduqca mürəkkəb siyasi və hərbi şəraitdə muxtar respublikanın müdafiəsinin təşkili, sərhədlərinin möhkəmləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm qərarlar qəbul etmişdir.

Muxtar respublikanın blokada şəraitində olduğu, Ermənistanın hərbi təcavüzünün genişləndiyi, sərhədyanı yaşayış məntəqələrinin davamlı hücumlara məruz qaldığı bir vaxtda müdafiənin vahid komandanlıq altında təşkil edilməsi zərurətinin həyati əhəmiyyəti var idi. Dövlət Müdafiə Komitəsinin yaradılması ilə muxtar respublikada fəaliyyət göstərən milli hərbi hissələrə və könüllü özünümüdafiə dəstələrinə vahid rəhbərlik təmin edildi.

Beləliklə, Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvanda həyata keçirilən tədbirlər təkcə muxtar respublikanın müdafiəsinin möhkəmləndirilməsinə deyil, bütövlükdə müstəqil Azərbaycanın milli ordu quruculuğunun təməlinin formalaşmasına xidmət etdi.

Həmin illərdə Azərbaycanın üzləşdiyi vəziyyət olduqca mürəkkəb idi. Bir tərəfdən ölkənin ərazi bütövlüyünə qarşı real təhlükə mövcud idi, digər tərəfdən isə daxildə siyasi qarşıdurmalar, pərakəndəlik və müxtəlif qüvvələrin dövlətçiliyi zəiflətməyə yönəlmiş cəhdləri davam edirdi. Belə bir şəraitdə Naxçıvanda milli hərbi qurumun yaradılması dövlətçilik baxımından da son dərəcə mühüm addım idi.



Dahi Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvanda yerləşən keçmiş sovet hərbi hissələrinə məxsus silah-sursat, hərbi texnika, təsərrüfat əmlakı və digər hərbi vasitələrin Azərbaycanın sərəncamına verilməsi təmin edildi. 1946-cı ildən Naxçıvanda yerləşdirilən 75-ci motoatıcı diviziyanın şəxsi heyətinin son dəstəsinin 18 avqust 1992-ci ildə muxtar respublikanı tərk etməsindən sonra isə milli hərbi quruculuq üçün yeni imkanlar yarandı və dahi şəxsiyyət bu imkanlardan uğurla bəhrələnməni təmin etdi.

Nəhayət, 15 sentyabr 1992-ci ildə Müdafiə Komitəsinin bazasında əlahiddə gücləndirilmiş motoatıcı birləşmənin yaradılması Naxçıvanda milli ordu quruculuğunun mühüm mərhələsini təşkil etdi.

Həmin il oktyabrında Naxçıvan şəhərində yeni yaradılmış hərbi birləşmənin bölmələrinin iştirakı ilə paradın keçirilməsi isə xalqın milli hərbi iradəsinin nümayişinə çevrildi. Azərbaycan zabitinin azərbaycanca ilk məruzəsini qəbul edən Ali Məclisin sədri, Ümummilli Lider Heydər Əliyev şəxsi heyəti ana dilində "Salam, Azərbaycan əsgəri!" sözləri ilə salamladı. Ulu Öndər həmin tarixi gündə Azərbaycan xalqının öz dövlətini və doğma torpaqlarını müdafiə etmək məqsədilə milli ordusunu yaratmasının böyük qürur hissi doğurduğunu vurğulayırdı. Bu sözlər təkcə həmin dövrün sevincini ifadə etmir, eyni zamanda, milli ordunun müstəqil dövlətçiliyin əsas dayaqlarından biri olduğunu ortaya qoyurdu.

Parad iştirakçıları meydandan keçdikdən sonra birbaşa ön mövqelərə, döyüş bölgələrinə yollandılar. Naxçıvan Muxtar Respublikanın müdafiəsində mühüm rol oynayan həmin bölmələrin şəxsi heyəti Sədərək, Buzqov və Gərməçataq istiqamətlərində düşmən hücumlarının qarşısının qətiyyətlə alınmasında iştirak etdi. Beləliklə, yenicə formalaşan milli hərbi qurum öz döyüş qabiliyyətini, Vətən, torpaq sevgisini real döyüş şəraitində nümayiş etdirdi.

Ulu Öndər Heydər Əliyevin Naxçıvandan başlatdığı və sonradan bütün Azərbaycanı əhatə edən ordu quruculuğu siyasəti 1993-cü ildən etibarən yeni mərhələyə qədəm qoydu. Həmin il xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Dahi Şəxsiyyət Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən, siyasi böhrandan və parçalanma meyillərindən xilas etdi. Dövlət idarəçiliyində sabitliyin bərqərar olunması ilə yanaşı, Silahlı Qüvvələrin vahid komandanlıq altında birləşdirilməsi, müxtəlif silahlı dəstələrin nizami ordu strukturuna daxil edilməsi, hərbi nizam-intizamın gücləndirilməsi və peşəkar ordunun formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməyə başlanıldı.

Məhz bu siyasətin nəticəsində Azərbaycan Ordusunun gələcək inkişafı üçün möhkəm təməl yaradıldı. Ulu Öndərin ordu quruculuğu sahəsində müəyyən etdiyi strategiyanın əsas məqsədi müasir, nizam-intizamlı, yüksək döyüş hazırlığına malik, peşəkar, xalqa və dövlətçiliyə sədaqətli Silahlı Qüvvələrin formalaşdırılması idi.

Bu siyasi kurs bu gün də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2003-cü ildən ötən dövr ərzində Azərbaycan Ordusunun maddi-texniki bazası əsaslı şəkildə yenilənib, müasir silah və texnika ilə təchizat genişləndirilib, hərbi qulluqçuların peşəkarlığının artırılması və döyüş hazırlığının yüksəldilməsi naminə mühüm addımlar atılıb. Ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında müdafiə imkanlarımızın möhkəmləndirilməsi də bu genişmiqyaslı ordu quruculuğu siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyevin 18 dekabr 2013-cü il tarixli Fərmanı ilə Naxçıvandakı Ordu birliyinin əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması bu uğurlu addımların bariz nümunəsidir. Bu qərar Ümummilli Lider Heydər Əliyevin vaxtilə əsasını qoyduğu muxtar respublikanın etibarlı müdafiəsi siyasətinin yeni mərhələdə davamı oldu.

Dövlətimizin başçısı Naxçıvanın hərbi potensialının əhəmiyyətini hər zaman xüsusi vurğulayıb. Prezident İlham Əliyev Naxçıvanın strateji mövqeyinə diqqət çəkərək burada döyüş potensialının ən yüksək səviyyədə olmasının vacibliyini bildirib. Müzəffər Ali Baş Komandan Əlahiddə Ümumqoşun Ordunun yaradılmasını və onun müasir silah-sursat və texnika ilə təmin edilməsini dövlət siyasətinin tərkib hissəsi kimi xarakterizə edib.

Əlahiddə Ümumqoşun Ordunun inkişafı istiqamətində görülən ardıcıl tədbirlər öz nəticəsini döyüş meydanında da göstərdi. 2018-ci ilin mayında həyata keçirilən Günnüt əməliyyatı Azərbaycan hərb tarixinin parlaq səhifələrindən birinə çevrildi. Əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi işğaldan azad edildi. Bununla müdafiə zolağının ön xəttinin daha əlverişli mövqelərə çıxarılması, strateji əhəmiyyətli yüksəkliklərə və böyük ərazilərə nəzarətin təmin olunması mümkün oldu.

Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti 2020-ci ilin 27 sentyabrında başlayan haqq savaşında - İkinci Qarabağ müharibəsində də torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak etdi. Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarının qarşısının alınması və tarixi ədalətin bərpası məqsədilə aparılan əks-hücum hərbi əməliyyatlarında Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyətinin döyüş yolu Azərbaycan Ordusunun ümumi qələbəsinə öz töhfəsini verdi.

Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən sonra ordu quruculuğu yeni mərhələyə qədəm qoydu. Azərbaycan Ordusunun qarşısında artıq yalnız ərazi bütövlüyünün bərpası deyil, əldə edilmiş Zəfərin nəticələrinin qorunması, dövlət sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi, yeni hərbi çağırışlara cavab verə biləcək peşəkar və yüksək döyüş hazırlığına malik bölmələrin formalaşdırılması kimi mühüm vəzifələr dayanır. Bu baxımdan Əlahiddə Ümumqoşun Orduda yeni əməliyyat (komando) hərbi hissələrinin yaradılması da ordu quruculuğunda həyata keçirilən planlı islahatların məntiqi davamıdır.

2026-cı il avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Naxçıvana səfəri zamanı Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan əməliyyat (komando) hərbi hissələrinə Döyüş bayraqlarının təqdim olunması mərasiminin keçirilməsi bunun əyani göstəricisi oldu. Ali Baş Komandan yeni yaradılan hərbi hissələrin komandirlərinə Döyüş bayraqlarını təqdim etdi, şəxsi heyəti salamladı və hərbi hissələrin fəaliyyəti ilə bağlı məruzələri dinlədi. Səfər çərçivəsində dövlətimizin başçısına Azərbaycan Ordusunun arsenalında olan silah sistemləri və hərbi-texniki vasitələr barədə də ətraflı məlumat verildi.



Bu hadisənin məhz Naxçıvanda baş verməsi xüsusi məna daşıyır. Çünki illər əvvəl burada Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə milli hərbi quruculuğun təməli qoyulmuş, bu gün isə həmin təməl üzərində müasir, yüksək döyüş imkanlarına malik hərbi struktur formalaşdırılıb.

Prezident İlham Əliyev həmin səfər zamanı Naxçıvan istiqamətində müdafiə potensialımızın gücləndirilməsinin daim prioritet məsələ olduğunu vurğulayaraq qeyd etdi ki, onun Prezident kimi Naxçıvana 17-ci səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Orduda yeni komando qüvvələrinin yaradılması Naxçıvanda hərbi gücümüzün daha da artırıldığını göstərir. Dövlətimizin başçısı, həmçinin Əlahiddə Ordunun Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsi olduğunu, Naxçıvanın coğrafi xüsusiyyətləri və təhlükəsizliyinə görə burada hərbi potensialın gücləndirilməsinə xüsusi diqqət yetirildiyini də bildirdi.

Beləliklə, 1992-ci ildə Naxçıvanda milli ordu quruculuğu yolunda ilk mühüm addımlarından biri kimi yaradılan hərbi birləşmədən bu gün yüksək hazırlıqlı komando qüvvələrinin formalaşdırılmasına qədər uzanan yol Azərbaycan dövlətinin ordu quruculuğu siyasətinin ardıcıllığını və davamlılığını nümayiş etdirir.

Bu yolun başlanğıcında Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi, siyasi iradəsi və dövlətçilik təcrübəsi dayanır. Bu gün isə həmin strateji kurs Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni məzmun və müasir dövrün hərbi tələblərinə uyğun formada davam etdirilir. Əlahiddə Ümumqoşun Ordunun yaradılması, onun müasir silah və texnika ilə təchiz edilməsi, döyüş qabiliyyətinin yüksəldilməsi, yeni əməliyyat hərbi hissələrinin formalaşdırılması və şəxsi heyətin hazırlığının gücləndirilməsi bu siyasətin ardıcıl xarakter daşıdığının göstəricisidir.

Ölkəmizdə ordu quruculuğu prosesi bu gün də uğurla davam etdirilir. Bölmələrin maddi-texniki təminatı gücləndirilir, yeni müdafiə qurğuları, əsgəri-məişət və yaşayış binaları inşa edilir, hərbi qulluqçuların, eləcə də onların ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılır. Eyni zamanda, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının artırılması istiqamətində də tədbirlər davam etdirilir.

Bu gün qalib Azərbaycan Ordusu dövlətimizin müstəqilliyinin, ölkəmizin ərazi bütövlüyünün etibarlı təminatçısıdır. Əlahiddə Ümumqoşun Ordu isə bu böyük və qüdrətli hərbi sistemin mühüm tərkib hissələrindən biridir.

Əminik ki, Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu, Prezident İlham Əliyevin müasir tələblər əsasında daha da inkişaf etdirdiyi Əlahiddə Ümumqoşun Ordu bundan sonra da qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirəcək, Müzəffər Ali Baş Komandanın hər bir əmrini yüksək məsuliyyət və peşəkarlıqla icra edəcəkdir. Qürur hissi ilə qeyd edə bilərik ki, Vətən müharibəsində qazandığımız şanlı Zəfər Ümummilli Liderin başladığı yolun Müzəffər Ali Baş Komandan zirvəsidir.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev adına Hərbi İnstitutun kursantlarının andiçmə mərasimi keçirildi

Sentyabrın 12- də Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstituta yeni qəbul olunmuş kursantların təntənəli andiçmə mərasimi keçirildi. Keçirilən tədbirdə Hərbi İnstitutun rəhbərliyi və şəxsi heyəti, professor-müəllim heyəti, şəhid ailələri, valideynlər, eləcə də digər qonaqlar iştirak etdilər.

Mərasimdə əvvəlcə Heydər Əliyev adına Hərbi İnstitutun rektoruna gənc kursantların andiçmə mərasiminə hazır olmaları barədə məruzə edildi. Heydər Əliyev adına Hərbi İnstitutun rektoru general-mayor Ümüdvar Quliyev kursantları salamladıqdan sonra tədbirin proqramı mərasim iştirakçılarının diqqətinə çatdırıldı.

Hərbi orkestrin müşayiəti ilə institutun Döyüş bayrağı təntənəli surətdə mərasimin keçirildiyi sıra meydanına gətirildi. Daha sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anıldı, hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.





Dövlət Himni başa çatdıqdan sonra gənc kursantlar hərbi orkestrin baraban ifası ilə addımlayaraq onlar üçün təyin olunmuş masaların yanında öz yerlərini tutdular. Ritmə əsasən yarımsağa və yarımsola dönən kursantlar bir əli ilə silahını, digər əli ilə silahdaşını tutaraq, Hərbi Andı qəbul etdi. Şəxsi heyətin Hərbi Andı qəbul etməsinin başa çatması ilə bağlı institut rektoruna məruzə edildi.

Andiçmə başa çatdıqdan sonra gənc kursantlar komandirin müvafiq komandası ilə öz yerlərinə qayıtdılar.

Andiçmə mərasimi Heydər Əliyev adına Hərbi İnstitutun rektoru general-mayor Ümüdvar Quliyevin çıxışı ilə davam etdi: "Çox hörmətli şəhid ailələri, valideynlər, cənab zabitlər, müəllimlər və əziz kursantlarımız! Bu gün Hərbi Andı qəbul etmiş kursantlarımızı ürəkdən təbrik edirəm. Gələcək xidməti fəaliyyətinizdə hər birinizə uğurlar arzu edirəm. Əminəm ki, bir az əvvəl burada qəbul etdiyiniz Hərbi Andın hər bir kəlməsini, hər bir sətrini hər zaman uca tutacaq, vətəndaşlıq və övladlıq borcunuzu ödəyərkən bu sözləri özünüz üçün əsas amal biləcəksiniz. Başınızın üzərində daim uca tutacağınız bu Hərbi And şəhidlərimizin qəhrəmanlıq, döyüşlərdə yaralanmış silahdaşlarımızın fədakarlığı və valideynlərimizin qürur misralarından ibarətdir. Siz hər zaman Vətənə sədaqətlə xidmət edəcəyinizin andını içdiniz. Sizin sıralarınızda gələcəkdə ali rütbələrə və rəhbər vəzifələrə təyin olunacaq şəxslər olacaq. Dəyərli kursantlar, qısa zaman kəsiyində də olsa bir çox məsuliyyəti, hərb sahəsinin incəliklərini artıq dərk etmisiniz. Və bunu qarşıdakı xidmət illərində də layiqincə davam etdirməlisiniz. Çünki sizin burada öyrəndikləriniz, qazandıqlarınız gələcəkdəki xidmətinizə və fəaliyyətinizə öz müsbət təsirini göstərəcəkdir. Gələcəkdə təlimlərdə, dərslərdə və digər xidməti fəaliyyətlərdə qarşınıza çıxa biləcək çətinliklər sizi durdurmayacaq, əksinə, sizi daha da iradəli, tələbkar və peşəkar edəcəkdir. İnanın ki, bu gün burada olan bütün valideynlərimiz, hər bir azərbaycanlı sizinlə fəxr edir, qürur duyur və sizə çox böyük etimad bəsləyir. Çünki bu gün Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tamdır. Ölkəmizin hər bölgəsində, sərhədlərində üçrəngli şanlı bayrağımız dalğalanır. Bu bayrağın daim zirvələrdə dalğalanması üçün bizim qəhrəman şəhidlərimiz öz canından, yaralılarımız öz sağlamlıqlarından keçiblər. Sizin üzərinizə düşən əsas vəzifələrdən biri isə dövlət bayrağımızı layiqincə yüksəklərdə daşımaqdır, xalqa layiqincə xidmət etməkdir. Bunu heç zaman unutmayın.

Bu gün Azərbaycan Ordusunda hərbi təhsil qabaqcıl ölkələrin təcrübəsini öyrənilməklə tədris edilir. Sizlərin sırasından dünyanın nüfuzlu hərbi təhsil mərkəzlərində təhsil almaq imkanı qazananlar olacaq. Heç bir zaman unutmayın ki, siz təkcə özünüzü deyil, xalqınızı, dövlətinizi, ailənizi, elinizi-obanızı digər ölkələrdə təmsil edəcəksiniz. Bunun üçün də hər işi layiqincə görməlisiniz, özünüzü daim təkmilləşdirməli, bu sahənin incəliklərini dərindən mənimsəməlisiniz. Sonda bir daha hər birinizi təbrik edir, gələcək xidmətinizdə və həyatınızda müvəffəqiyyətlər arzu edirəm".

Daha sonra Hərbi Andı yeni qəbul etmiş kursant Nicat Zərbəliyev çıxış etdi: "Cənab general-mayor, cənab zabitlər, hörmətli müəllimlər, əziz valideynlər və kursant yoldaşlarım! Hamınızı salamlayıram. Ulu Öndər Heydər Əliyevin adını daşıyan Hərbi İnstitutda təhsil almaq, hərb işinin incəliklərini öyrənmək və şəhidlərimizin bizlərə əmanət etdiyi müstəqil Azərbaycanın ərazi bütövlüyünü qorumaq peşəsinə sahib olmaq bizlər üçün bir fəxrdir. Bu gün mən və kursant yoldaşlarım babalarımızın bizə yadigar qoyduğu torpaqları qorumaq, tarix boyu öz mübarizliyi və döyüşkənliyi ilə fərqlənmiş xalqın təhlükəsizliyini təmin etmək, Ulu Öndərin bizlərə əmanət etdiyi müstəqil Azərbaycanı yaşatmaq üçün əlimizdən gələni əsirgəməyəcəyik. Bu müqəddəs təhsil ocağında daim öz üzərimizdə çalışacağımıza, müasir hərb sənətini öyrənəcəyimizə və fiziki gücümüzü bu illər ərzində daha da inkişaf etdirəcəyimizə komandir və valideynlərimiz qarşısında söz veririk. Bu gün regionun əsas gücünə çevrilmiş Azərbaycan Ordusunda xidmətimizlə fəxr edirik. Diqqətinizə görə minnətdaram".

Hərbi Andı yeni qəbul etmiş qadın kursant Simuzər Allahverdiyevanın çıxışı da yaddaqalan oldu: "Hörmətli komandirlər, dəyərli müəllimlər, əziz qonaqlar və kursant yoldaşlarım! Bu gün biz gənc kursantların həyatında ən əlamətdar günlərdən biridir. Mən də bir kursant olaraq Vətən qarşısında and içməkdən qürur duyuram. Amma unutmayaq ki, bu andın müqəddəsliyi şəhidlərimizin qanı ilə möhkəmlənib. Əcdadlarımızın bizə miras qoyduğu bu and bizim üçün yalnız hərbi xidmətin başlanğıcı deyil, həm də xalqımıza, torpaqlarımıza sədaqətimizin rəmzidir. Bu gün Azərbaycan qadını olaraq, müqəddəs Hərbi And içirik. Bu and yalnız söz deyil, bu and bizim qanımız, canımız, nəfəsimiz və varlığımızdır. Biz bu formanı geyinərkən təkcə özümüzü yox, min illərin qəhrəman Azərbaycan qadınını təmsil edirik. Biz də onlar kimi hər zaman ordumuzun şərəfini uca tutacağıq. Hörmətli tədbir iştirakçıları! Azərbaycan Ordusunun qurucusu Ümummilli Lider Heydər Əliyev olmuşdur. Belə ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gəlməsi, respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi. Mən və kursant yoldaşlarım fəxr edirik ki, güclü Azərbaycan Ordusunda xidmət edəcəyik.

Əziz valideynlər, bu gün sizin də gününüzdür. Çünki, övladlarınız Vətənin keşiyində dayanmağa hazır olduğunu nümayiş etdirir. Biz, gənc kursantlar daim Vətənə sədaqətlə xidmət edəcək, Azərbaycan qadınının gücünü, cəsarətini və şərəfini layiqincə göstərəcəyik".

Gənc kursantların çıxışı başa çatdıqdan sonra şəhid ailələri adından çıxış üçün söz İkinci Qarabağ müharibəsi şəhidi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Pərviz Ələsgərovun həyat yoldaşı Mətanət Ələsgərovaya verildi: "Əvvəlcə hər kəsi salamlayıram. Mən burada şəhid həyat yoldaşı ilə yanaşı, Hərbi Andı yeni qəbul etmiş kursant və gələcəkdə atası qədər şərəflə, ləyaqətlə Vətəninə xidmət edəcək Ələsgərov Eşqinin anası olaraq çıxış edirəm. Atalarımız əsrlər boyu Vətən uğrunda, xalq uğrunda düşmənə qarşı mübarizələr aparmışlar. Mübarizələr



və müharibələr məlumdur ki, itkisiz olmur. Çünki uğrunda ölən varsa, Vətən var. Bu mübarizələrdən biri də 27 sentyabr 2020-ci ildə oldu. 44 günlük Vətən müharibəsində, haqq savaşımızda minlərlə şəhidimiz, yaralımız oldu. 30



ilə yaxın işğalda olan torpaqlarımızı geri qaytarmaq üçün öz canını və qanını əsirgəməyən oğullarımız sayəsində ədalət bərpa edildi. Məhz bu haqq savaşımızın şəhidlərindən biri də həyat yoldaşım və kursant övladımın atası kiçik çavuş Pərviz Ələsgərov olub. O, Kəlbəcər istiqamətində Murov yüksəkliyində gedən döyüşlərdə iştirak edib. Elə müharibənin ilk günündə, həm də doğum günündə haqq savaşına yollandı. Qəhrəmancasına şəhid oldu, Daşkəsən Şəhidlər xiyabanında dəfn edildi. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Pərviz Ələsgərov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. Bu günə qədər çox tədbirlərdə şəhid həyat yoldaşı olaraq çıxış etmişəm, amma heç bu qədər hüznlü, eyni zamanda, qürurlu olmamışam. Çünki bizim övladımız öz atasının yolunu davam etdirmək üçün bu gün and içənlərin sırasındadır. Oğlumun öz arzusu idi, atasının vətənpərvərlik ənənəsini uğurla davam etdirsin. Bu gün buradan oğluma və Eşqinin timsalında bütün kursant övladlarıma səslənirəm: "Sizinlə fəxr edirəm". Bu sırada olmağı çox adam istəyir, lakin bu qalib ordunun hərbi mundirini geyinmək hər kəsə qismət olmur. Əziz oğlum, sənə bu şərəfli xidmətdə atan qədər vətənpərvər, cəsur olmağı arzu edirəm. Gələcəkdə ölkəni daha da layiqli təmsil edəsən, Vətənini layiqincə qoruyasan. Bu gün bir daha əmin oldum ki, nə qədər ki, Vətənini sevən, ömrünü ona həsr edən gənclərimiz var, ordumuz bir o qədər də güclüdür. Bu gün hər birinizi gənc kursant olaraq, təbrik edirik, 5 il sonra zabit olaraq burada sizləri təbrik etmək ümidi ilə. Hər birinizin müqəddəs amal uğrunda başladığı bu yol uğurlu və layiqli olsun. Diqqətinizə görə çox sağ olun".

Gənc kursantların valideynləri adından çıxış edən Tacəddin Babayev qonaqları salamladı və oğlunun timsalında bu şərəfli yolu seçən Hərbi Andı yeni qəbul etmiş gələcək zabitlərə müvəffəqiyyətlər arzuladı: "Kursant Babayev Cavidanın atası olaraq hər kəsi salamlayıram və gələcəyin zabitinin valideyni kimi, mən də bu gün qürur duyuram. Mənim övladım və övladımın timsalında bütün kursantları bu əlamətdar və yaddaqalan gün münasibətilə təbrik edirəm. Çıxdığınız ən şərəfli və müqəddəs yolda hər birinizə uğurlar arzu edirəm. Dəyərli kursantlarımız, siz bu gün elə bir institutda təhsil alırsınız ki, bu institut orducumuzun qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adını daşıyır. Sizin dayandığınız sıralardan yüzlərlə qəhrəmanlar, generallar çıxıb. Hər birinizə sələflərinizin adına və qəhrəmanlığına layiq xidmət arzu edirəm. Öz şərəfli xidmətlərinizlə valideynlərinizə hər zaman başucalığı gətirəsiniz".

Çıxışlar başa çatdıqdan sonra andiçmə ilə bərabər, doğum günü olan kursantlar Nəsir Əliyev, Altun Əlizadə və Murad Alıyev Heydər Əliyev adına Hərbi İnstitutun rəhbərliyi tərəfindən mükafatlandırıldı.

Mərasimin sonunda şəxsi heyətin tribuna önündən təntənəli keçidi baş tutdu.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# 1918 - Bakının zəfər salnaməsi

Azərbaycan Hərb Tarixi Muzeyində “1918 - Bakının zəfər salnaməsi” mövzusunda tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, Milli Müdafiə Universitetinin Bakı Hərbi Kollecinin kursantları, ictimaiyyətin nümayəndələri və digər qonaqlar iştirak etdilər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.



Tədbirdə çıxış edən Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Elşad Pənahov 1918-ci ilin Azərbaycanın dövlətçilik və hərb tarixində xüsusi yer tutduğunu bildirdi. O qeyd etdi ki, həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyəti olduqca mürəkkəb hərbi-siyasi şəraitlə üz-üzə qalmışdı. Cümhuriyyət elan edilərkən Bakı şəhəri və ətraf ərazilər müxtəlif siyasi və hərbi qüvvələrin nəzarətində idi. Gəncə isə müvəqqəti paytaxt kimi fəaliyyət göstərirdi.

Muzey rəisi, eyni zamanda, vurğuladı ki, belə ağır şəraitdə Bakının azad edilməsi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyırdı. Azərbaycan hökumətinin Osmanlı dövlətindən hərbi yardım istəməsindən sonra türk hərbi qüvvələri ilə Azərbaycanın milli hərbi qüvvələri əsasında Qafqaz İslam Ordusu yaradılmışdı. Ordunun komandanı Nuru paşa, Azərbaycan hərbi qüvvələrinin görkəmli nümayəndəsi Əlağa Şıxlinski isə onun fəaliyyətində mühüm rol oynayan sərkərdələrdən biri idi.

Ehtiyatda olan polkovnik Elşad Pənahov çıxışında onu da qeyd etdi ki, Bakının azadlığı bir gündə qazanılan qələbə deyildi. 1918-ci ilin yay aylarından etibarən Göyçay istiqamətində başlayan döyüşlər davam etdirilib, Bakı ətrafında mövqelər uğrunda ağır mübarizə gedib. Avqustun 5-də şəhər istiqamətində ilk böyük hücum nəticə verməsə də, Qafqaz İslam Ordusu və Azərbaycan milli hərbi qüvvələri mübarizəni davam etdiriblər.

Tədbirdə çıxış edən Bakı Hərbi Kollecinin nümayəndəsi Abuzər Mahmudov 15 sentyabr 1918-ci il tarixinin Azərbaycan xalqının yaddaşında xüsusi yer tutduğunu bildirdi. A.Mahmudov bildirdi ki, həmin gün Qafqaz İslam Ordusu və Azərbaycan milli hərbi qüvvələrinin birgə mübarizəsi nəticəsində Bakı azad edilib. Bu qələbə Azərbaycan Xalq Cümhuriyyətinin paytaxta nəzarət təmin etməklə yanaşı, gənc dövlətin siyasi və hərbi mövqeyinin möhkəmlənməsində mühüm rol oynayıb.

Digər natiq Zəvatə Orucəliyeva diqqətə çatdırdı ki, Bakı uğrunda döyüşlərdə Azərbaycan və Türkiyədən olan hərbçilərlə yanaşı, çoxsaylı azərbaycanlı könüllülər də iştirak ediblər.

Daha sonra o, 1918-ci il hadisələrinin yalnız keçmişin bir səhifəsi olmadığını, həm də Azərbaycan-Türkiyə qardaşlığının tarixində mühüm yer tutduğu vurğuladı.

Çıxışların sonunda bildirildi ki, hərb tariximizin belə şanlı səhifələrinin öyrənilməsi gənc nəslin milli yaddaşının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi tərənnüm edən mahnılar səsləndirdilər.

**Hüsniyyə NƏSİROVA**
**“Azərbaycan Ordusu”**

# Bakını azadlığa aparan 100 günlük yürüş

(Əvvəli 5-ci səhifədə)

Hər bir uğurlu əməliyyat Bakıya gedən yolun qısalması demək idi. İyulun sonlarına doğru cəbhə xətti artıq paytaxtın lap yaxınlığında idi. Amma qarşıda asan hədəf yox idi. Bakı həm təbii-coğrafi, həm də hərbi-strateji baxımdan əlverişli müdafiə mövqeyinə malik idi. Şəhərin əldə saxlanılması üçün müxtəlif siyasi və hərbi qüvvələr bir araya gəlmişdi. Bakı Sovetinin qüvvələrindən sonra Sentrokaspi Diktaturası hakimiyyətə gəldi. Şəhər uğrunda döyüşlərə Britaniya qüvvələri də cəlb edildi. General-mayor Lionel Denistervilin rəhbərlik etdiyi “Dunsterforce”un Bakıya göndərilməsinin əsas məqsədlərindən biri şəhərin və onun neft sənayesinin Osmanlı və Almaniyanın nəzarətinə keçməsinin qarşısını almaq idi. Bu məqam Bakı uğrunda mübarizənin yalnız Azərbaycan və Osmanlı qüvvələri ilə şəhərdəki qanunsuz silahlı dəstələr arasında qarşıdurma olmadığını göstərirdi. Burada Birinci Dünya müharibəsinin böyük geosiyasi maraqları da toqquşurdu.

Bakı neftinə sahib olmaq böyük dövlətlər üçün strateji məsələ idi. Şəhərin neft sənayesi onu yalnız Qafqaz üçün deyil, beynəlxalq səviyyədə əhəmiyyətli hərbi-iqtisadi mərkəzə çevirirdi. Buna görə də 1918-ci ilin yayında Bakı uğrunda aparılan mübarizə şəhərin taleyindən daha böyük məna daşıyırdı. Qafqaz İslam Ordusunun Bakıya ilk böyük hücumu iyulun sonlarında başladı. Lakin şəhərin dərhal tutulması mümkün olmadı. Avqustun 5-də həyata keçirilən hücum da nəticəsiz başa çatdı. Hücum zamanı Qafqaz İslam Ordusu ciddi itkilərlə üzləşdi. Mənbələrdə həmin döyüşlərdə 139 hərbçinin həlak olduğu, 444 nəfərin yaralandığı qeyd edilir. Bu uğursuzluq komandanlıq üçün ciddi dərs idi. Bakı üzərinə növbəti hücum daha hazırlıqlı həyata keçirilməli idi. Qafqaz İslam Ordusuna əlavə qüvvələr gətirildi. Süleyman İzzət bəyin komandanlığı altında 15-ci diviziya Qafqaza göndərildi. Beləliklə, Bakı istiqamətindəki qüvvələrin sayı və döyüş imkanları artırıldı. Son hücum ərəfəsində Qafqaz İslam Ordusunun tərkibində Azərbaycan və Osmanlı hərbi hissələri birlikdə fəaliyyət göstərirdi. Avqust ayının son günlərində Bakı ətrafında döyüşlər daha da şiddətləndi. Şəhərin müqavimət xətti bir neçə istiqamətdən təzyiq altında saxlanılırdı. Şəhəri əldən vermək istəməyən qüvvələr hücumların qarşısını almağa çalışır, Qafqaz İslam Ordusu isə şəhərə daxil olmaq üçün əlverişli mövqelər əldə etməyə çalışırdı. Britaniya qüvvələrinin döyüşlərdə iştirakı da vəziyyəti mürəkkəbləşdirirdi. Lakin onların sayı məhdud idi. Bakıdakı qüvvələr də daxili siyasi ziddiyyətlər və koordinasiya problemləri ilə üzləşirdi. Sentyabrın əvvəllərində isə artıq son mərhələ başlamışdı. Qafqaz İslam Ordusunun komandanlığı şəhərə həlledici zərbə endirmək üçün hazırlıq gördü. Məqsəd əvvəlki hücumlarda olduğu kimi yalnız müqaviməti qırmaq deyil, müqavimət sistemini bütövlükdə sıradan çıxarmaq və şəhərə nəzarəti ələ keçirmək idi.



Sentyabrın 14-dən 15-nə keçən gecə həlledici hücum başladı. Qafqaz İslam Ordusunun hissələri müxtəlif istiqamətlərdən Bakı üzərinə hücuma keçdilər. Bu dəfə hücum əvvəlkilərdən fərqli olaraq daha genişmiqyaslı və koordinasiyalı idi. Qarşı tərəfin mövqeləri bir-birinin ardınca zəifləməyə başladı. Bakıdakı Britaniya qüvvələrinin vəziyyəti də artıq kritik həddə çatmışdı. General-mayor L.Denistervilin qüvvələri şəhəri saxlamağın mümkün olmadığını gördükdən sonra Bakıdan çıxmağa qərar verdi. Sentyabrın 14-də Britaniya hərbi qüvvələri gəmilərlə şəhəri tərk edərək Ənzəli istiqamətinə yollandı. Bu hadisə Bakının azad edilməsinin son mərhələsinə birbaşa təsir göstərdi. Sentyabrın 15-də döyüşlər davam edirdi. Lakin artıq şəhərdəki qüvvələrin imkanları tükənmək üzrə idi. Qafqaz İslam Ordusunun hissələri Bakı üzərində nəzarəti təmin etdilər. Sentrokaspi Diktaturasının hakimiyyətinə son qoyuldu və Bakı Azərbaycan hökumətinin nəzarətinə keçdi. Beləliklə, 1918-ci il sentyabrın 15-də Azərbaycanın paytaxtı azad edildi. Bu nəticəyə aparan yol isə bir neçə günə deyil, təxminən üç ay davam edən ağır döyüşlərdən keçmişdi. Göyçayda başlayan mübarizə Kürdəmir və Şamaxı istiqamətindən Bakının ətəklərinə qədər uzanmış, avqustun 5-dəki uğursuz hücumdan sonra Qafqaz İslam Ordusu yenidən təşkilatlanaraq sentyabr ayında son və həlledici əməliyyata başlamışdı.

Bakının azad edilməsinin hərbi nəticəsi qədər siyasi nəticəsi də böyük idi. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti artıq öz paytaxtına nəzarət edə bilirdi. Sentyabrın 17-də Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Bakı faktiki olaraq Cümhuriyyətin siyasi və inzibati mərkəzinə çevrildi. Sentyabrın 16-da isə Bakıda Qafqaz İslam Ordusunun hərbi paradı keçirildi. Paradda Nuru paşa, Xəlil paşa, general Əliağa Şıxlinski, polkovnik Həbib bəy Səlimov, Azərbaycan hökuməti və parlamentinin nümayəndələri iştirak edirdilər. Döyüş meydanında qazanılan qələbə artıq şəhərin küçələrində nümayiş etdirilirdi. Lakin bu qələbənin qiyməti ağır olmuşdu. 1918-ci ilin yayında Bakı istiqamətində aparılan döyüşlər zamanı Qafqaz İslam Ordusunun çoxsaylı hərbçiləri həlak olmuş və yaralanmışdı. Təkcə Bakının azad edilməsi əməliyyatında Osmanlı ordusunun itkilərinin 1130 nəfər olduğu göstərilir. Azərbaycanlı hərbçilər və könüllülər də bu döyüşlərdə böyük itkilər vermişdilər. Bu baxımdan 15 sentyabrı sadəcə Bakının hərbi yolla nəzarətə götürülməsi kimi qiymətləndirmək doğru olmaz. Bu tarix həm də Azərbaycan Xalq Cümhuriyyətinin öz paytaxtında hakimiyyətini təmin etdiyi gündür.

Qafqaz İslam Ordusunun yürüşü Azərbaycan və Osmanlı hərbi qüvvələrinin birgə əməliyyatının nümunəsi kimi də hərb tarixində xüsusi yer tutur. Azərbaycanlı hərbçilərin və könüllülərin Osmanlı zabitləri və əsgərləri ilə birlikdə döyüşməsi həmin dövrün mürəkkəb hərbi-siyasi şəraitində mühüm amil idi. Bununla belə, Bakının azadlığı uzunmüddətli siyasi sabitliklə nəticələnmədi. Birinci Dünya müharibəsinin sonuna yaxın Osmanlı imperiyasının məğlubiyyəti Qafqazdakı vəziyyəti yenidən dəyişdirdi. 30 oktyabr 1918-ci ildə Mudros barışığının imzalanmasından sonra Osmanlı qoşunlarının Azərbaycanı tərk etməsi tələb olundu. Qafqaz İslam Ordusunun Azərbaycandakı fəaliyyəti də bununla başa çatdı.

1918-ci ilin mayında müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyəti cəmi bir neçə ay sonra öz paytaxtına nəzarəti təmin etmişdi. Gəncədən Bakıya uzanan yol döyüşlərlə, itkilərlə və ağır qərarlarla keçmişdi. Göyçayda əldə olunan üstünlük, Şamaxı və Kürdəmir istiqamətində irəliləyiş, Bakı ətrafındakı uğursuz hücumlar, yenidən təşkilatlanma və nəhayət, sentyabrın 14-dən 15-nə keçən gecə başlayan həlledici əməliyyat bu yolun əsas mərhələlərini təşkil edirdi. Tarixdə elə şəhərlər var ki, onlar uğrunda aparılan mübarizə bir şəhərin taleyindən daha böyük nəticələr doğurur. Bakı da belə şəhərlərdən biridir. 1918-ci ilin sentyabrında onun azad edilməsi Azərbaycan dövlətçiliyinin hərbi-siyasi baxımdan möhkəmlənməsinin əsas mərhələlərindən birinə çevrildi. 15 sentyabrın səhəri Bakıda artıq başqa mənzərə vardı. Bir neçə ay əvvəl Gəncədə fəaliyyət göstərən Azərbaycan hökuməti öz paytaxtına qayıdırdı. Döyüş meydanında qazanılan qələbə dövlət idarəçiliyinə, siyasi həyata və milli ordu quruculuğuna yeni imkanlar açırdı. Bakı uğrunda döyüşlərin tarixi əhəmiyyəti də məhz buradadır. Söhbət yalnız bir şəhərin azad olunmasından getmirdi. Söhbət yenicə yaranan Azərbaycan dövlətinin öz siyasi mərkəzinə çatmasından gedirdi. 1918-ci il sentyabrın 15-də başa çatan yürüşün izi isə təkcə həmin günün hərbi salnaməsində deyil, Azərbaycanın dövlətçilik tarixində də qaldı. Gəncədən başlayan yol Xəzərin sahilində tamamlandı və Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrildi. Bir şəhərə aparan yol, beləliklə, bir dövlətin siyasi mərkəzinə aparan yola çevrildi.

**Leytenant**
**Tamilla HÜSEYNLİ**
**“Azərbaycan Ordusu”**

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Lalə HÜSEYNOVA | Lisenziya № 361 Sifariş № 773 Nüsxə 3653 |